19_27 IYUI-QARA.qxd 6/13/2024 9:04 PM Page 1

UNİKAL

№20 (2202) 14 iyun 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru

# Ermənistanın yeni siyasi oyunu:

## Öz maraqlarını sülh müqavilasinə calamağa çalışırlar



Səh.9



# Baş nazir hökumət üzvlərini topladı

*Azərbaycan Respublikasının İqtisadi Şurasının və Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının birgə iclası keçirilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən "Unikal"a bildirilib ki, iyunun 13-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində "Azərbaycan Respublikasının dövlət müəssisələrinə özəl investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 avqust tarixli 4078 nömrəli Sərəncamından irəli gələn tapşırıqların icra vəziyyəti, o cümlədən Sərəncama əsasən, özəl investisiyaların cəlb edilməsi nəzərdə tutulan dövlət...*

Səh.2

# "Sosial vəziyyətin ağırlığı boşanmalara səbəb olur"



*Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini, deputat Tahir Kərimli "Unikal"a müsahibə verib. O, yaxın qohumların evliliyinin qadağan edilməsi məsələsindən, bunun qeyri-rəsmi nikahların sayının artmasına necə təsir edəcəyindən və boşanmaların sayının artmasından danışıb.*

Səh.4

# Hikmət Hacıyev NATO-da bir sıra görüşlər keçirdi



*Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev 12-13 iyun 2024-cü il tarixlərində Belçikada səfərdə olub. "Unikal" Azərbaycanın NATO-dakı nümayəndəliyinə istinadən xəbər verir ki, səfər çərçivəsində Hikmət Hacıyev...*

Səh.2

# Ombudsmandan Fransa ilə bağlı çağırış



*Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva beynəlxalq təşkilatları Fransa hökumətinin media nümayəndəsi ilə bağlı qərəzli hərəkətini pisləməyə və məsələ ilə bağlı zəruri araşdırmalar aparmağa çağırıb. "Unikal"ın məlumatına görə, Səbinə Əliyeva xatırladıb ki...*

Səh.7

# “Bu məsələ bağlana bilməz” - Ruhi Əliyeva



***“Bakı şəhəri, Səbail rayonunda yerləşən 189 saylı orta məktəbin mühafizəçisinin 9-cu sinif şagirdini döyməsinin videosunu təəssüf hissi ilə izlədim. Övladı yerində olan uşağı bu cür vurmaq doğrudan da vəhşilikdən başqa bir şey deyil”.***

“Unikal” xəbər verir ki, bu sözləri iş xanımı Ruhi Əliyeva sosial şəbəkə hesabında yazıb. O, Bakı məktəblərinin birində baş verən hadisəyə münasibət bildirib: “Həmin şagirdin hansısa pis hərəkət etməsi və ya kobud söz işlətməsi bu cür zorakı davranışa qətiyyən əsas vermir. Yayılan məlumata görə məktəb mühafizəçisi artıq işdən azad olunub. Lakin onun işdən azad olunması ilə bu məsələ bağlana bilməz. Əminəm ki, hüquq mühafizə orqanları belə zorakılığa yol verən şəxsin əməllərinə hüquqi qiymət verəcək”.

# Övladını itirən Çinarə açıqlama yaydı

***Bir neçə gün əvvəl keysəriyyə əməliyyatından sonra övladını itirən aparıcı Çinarə Əliyeva açıqlama yayıb.***

“Unikal” xəbər verir ki, bu barədə aparıcı sosial şəbəkə hesabında məlumat verib.

Bildirib ki, çox çətin anlar yaşayır: ”Bilirəm bu da keçəcək. 28-ci həftədən biz bu xəbəri bilirdik. Amma şansımız var deyirdik. Doplerdə görünəndə artıq gec idi. Mən də dedim ki uşaq qalsın. Əməliyyat edək. Bəlkə 5% şansı olar yaşamağa. Yenə də hər şey allahın əlindədir. Deməк ki, belə olmalı imiş. Azərbaycanın ən savadlı həkimlərini gəzmişik. Hamı eyni şeyi deyirdi. Amma məni başa düşən düşər. Bir ana kimi sona qədər övladımı xilas edib əməliyyata girdim. Klinkada bütün kollektiv hamsı bizə yardım etməyə çalışdı. Bu günləri unutmaram. Bir onu deyim ki, mən indi əziyyət çəkirəm. İnşallah ki, Allah mənə bir daha ana olmağı nəsib edər. Buna çox inanıram. Allah heç bir zaman məni darda qoymayəb. Heç kimi qınamayaq. İlk növbədə hər



dəqiqə yanımda olan həyat yoldaşım və anama təşəkkür edirəm. Biz çox böyük sınaqdan keçdik. Səbir sebir!” deyə bildirib.

Qeyd edək ki, Çinarə Əliyeva plastik cərrah Ruslan Rəsul ilə evlidir. İyunun 7-si uşaq keysəriyyə əməliyyatı ilə doğuldu. Ancaq onun sağ ciyəri inkişafdan qaldığı üçün dünyasını dəyişib.

# “Ayseli yaxşı oğlanlar istəyirlər”

***Müğənni Aysel Əlizadənin anası Səmayə xanım onunla bağlı açıqlama verib.***

“Unikal” olay-a istinadən xəbər verir ki, sənətçinin valideyni ”İncə səhər”ə müsahibə verərək ona ad günü arzularını çatdırıb:

”Aysel ikinci uşağımdır. Çılğın idi, nadincliyi var idi. Hər zaman onu qorumağa çalışırdım. Həyətə düşəndə də mütləq yıxılmalı idi. Böyük qızım hüququ bitirdi, Aysel dedi ki, müğənni olacam, konservatoriyaya girdi. İstəyirdim ki, onun da övladı olsun. Ən böyük arzum budur. Onu sevən həmişə çox olub, indi də çoxdur. Sadəcə qərar verməkdə çətinlik çəkir. Əkizlər bürcdüdür, bu gün qərar verdiyi şeyi sabah dəyişir. Onu çox yaxşı oğlanlar istəyir. Allahdan bir arzum odur ki, qərara gəlsin, gözəl insan bəxtinə çıxsın. Səni təbrik edirəm. Allahdan arzu edirəm ki, bu yaşın sənə uğur gətirsin, ananı sevindirəsən. Ən böyük arzum səni xoşbəxt görməkdir. Üzündən təbəssüm əskik olmasın, səni çox istəyirəm. Deyərlər, övladıdır tərifləyir. Yox. Aysel hamı üçün can yandıran qızdır, ürəyi çox təmizdir. Ona sevgi dolu həyat arzu edirəm”.





# "Bakıdan qaçmaq istəyirəm" - Rəqqasə Renka

***Renka ləqəbi ilə şou-biznesdə məşhurlaşan ərəb rəqslərinin mahir ifaçısı Rəna Ağamuradova (Renka) paytaxtdakı tıxaclardan və yollarda aparılan təmir işlərindən şikayətlənib.***

“Unikal” bizim.media-ya istinadən xəbər verir ki, rəqqasə məsələ ilə bağlı sosial şəbəkə hesabında post paylaşaraq Bakıdan getmək istədiyini yazıb.

”Bakıdan qaçmaq istəyirəm. Bu tıxaclar bitməyəcək. Hər yerdə təmir gedir. Hər yeri qazıblar. Gündə yalnız bir və ya iki işini çatdırırsan. Avtomobilləri dəli kimi idarə edirlər. Hamı əsəbidir, bir-birinin üstünə qışqırır”, - deyə R.Ağamuradova vurğulayıb.

# "200 mindən keçib, onunla duet oxuyacağam"

***Müğənni Kərim Abbasov “Rəngarəng səhər” verilişində qonaq olub.***



Proqram zamanı sənətçi duet oxumaq arzusunda olduğu həmkarından danışıb: ”O insanla nəinki görüşmək, hətta arzumdur ki, 200 min olsa belə onunla duet oxuyacağam. Bu şəxs Tarkandır. Sözün əsl mənasında istəyirəm. Eybi yox, 200 mindən keçəcəyəm, amma onunla duetimiz olacaq. Enerjisini sevirəm”.

# Xuramanın qızının səhhətində problem yaranıb



***Müğənni Xuraman Şuşalının qızı Məryəmin səhhətində problem yaranıb.***

Sənətçi bu haqda “Qonaqcanlı” verilişində danışıb. O bildirib ki, övladının səhhəti pisləşib: “Kiçik qızım Məryəmin burnunda qanaxmalar olur. Ötən gecə lap ağır olub. Bu səbəbdən səhərə kimi yatmamışıq. Ağır stres yaşamışam, çox qorxmuşam”.

Qeyd edək ki, rejissor Elçin Hüseynovla ailəli olan Xuramanın 4 övladı var.

# Vüsal Əliyev baba olub

***Müğənni Vüsal Əliyev baba olub.***

Bu barədə ifaçı ”7 Tamam” verilişində bildirib. Müğənninin qızının bir ay əvvəl oğul övladı dünyaya gəlib.

Qeyd edək ki, Vüsal Əliyevin 3 oğlu da var.



19_27 IYUl-QARA.qxd 6/13/2024 9:15 PM Page 3



# Şəhid ailələrinin mənzil təminatı ilə bağlı qanuna dəyişiklik edilir



***Şəhid ailəsinin üzvlərinə münasibətdə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçotun saxlanılması ilə bağlı qanuna dəyişiklik edilir.***

”Unikal” xəbər verir ki, bu barədə məsələ Milli Məclisin Əmək və sosial siyasət komitəsinin bu gün keçirilən iclasında müzakirə edilən “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” qanuna dəyişiklikdə öz əksini tapıb.

Layihədə qeyd edilib ki, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, rifah halının daim yaxşılaşdırılması ölkə başçısının bilavasitə rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Çoxşaxəli sosial müdafiə tədbirləri nəticəsində hazırda 20 adda təminat və sosial qayğı ilə əhatə olunmuş şəhid ailələrinin mənzil problemi də dövlətin xüsusi nəzarətindədir.

Bu baxımdan, şəhid ailəsinin üzvlərinə münasibətdə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçotun saxlanılması ilə bağlı dəyişikliyi nəzərdə tutan layihə bu sahədə növbəti müsbət addım olaraq dəyərləndirilməlidir.

Belə ki, mövcud qanunvericilik sistemində yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması və yaxud saxlanılmaması ilə bağlı müddəa nəzərdə tutulmamışdır.

Bu xüsusda, sözügedən qanun layihəsi məhz həmin kateqoriyaya aid olan subyektlərin mənzil şəraitinin yaxşılaşdırılması və yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçot alınma üzrə normativ tənzimləmənin təkmilləşdirilməsi məqsədilə hazırlanmışdır.

***Anar Kəlbiyev***

# "Hər 100 vətəndaşın 65-i əmək müqaviləsi olmadan işləyir" - Deputat

***”Bu gün Azərbaycanda əmək qabiliyyətli vətəndaşların sayı 5 milyon 195 min nəfərdir. Onlardan 4 milyon 900 mini iqtisadiyyatda fəal şəkildə iştirak edir. Amma əmək müqavilələrinin sayı 1 milyon 749 mindir”.***

”Unikal” xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, bu o deməkdir ki, vətəndaşların cəmi 35,6 %-i əmək müqaviləsi ilə çalışır:

”Eyni zamanda, bu gün iqtisadiyyatda fəal olan, yəni, işləyən vətəndaşların 65 %-nin əmək müqaviləsi yoxdur. Yəni, çalışan hər 100 vətəndaşın 65-i müqavilə olmadan işləyir. Rəsmi statistika onu göstərir ki, əmək bazarında müqavilə baxımından münasibətlərin leqallaşdırılması vacibdir. Muzdlu işçilərin sayının artması, əmək müqaviləsi ilə vətəndaşların işə cəlb edilməsinə ehtiyac var. Bu da həmin şəxslərin əmək hüquqlarının qorunması baxımından, eləcə də dövlət büdcəsinə daxilolmaların artması və münasibətlərin leqallaşdırılması baxımından önəmlidir”.

***Anar Kəlbiyev***

# Növbəti sertifikasiya imtahanlarının tarixi: bu müəllimlər iştirak edəcək

***Ölkənin təhsil ictmaiyyətinin müzakirə etdiyi müəllimlərin sertifikatlaşdırma prosesinin növbəti test imtahanı mərhələsi 21, 22, 24 iyunda keçiriləcək.***

“Unikal” xəbər verir ki, bu barədə Təhsilverənlərin Sertifikatlaşdırılması Şurası qərar qəbul edib. Qərara əsasən, həmin tarixlərdə bu il ilk dəfə prosesə cəlb olunacaq müəllimlər test imtahanı verəcəklər. Bura riyaziyyat və xarici dil (ingilis dili, rus dili, Azərbaycan dili (rus bölməsi), alman dili, fransız dili və s.) fənlərini tədris edən təhsilverənlər, eyni zamanda ibtidai sinif, Azərbaycan dili və ədəbiyyat müəllimləri daxildir.

Bu il 30000-dən çox təhsilverən sertifikatlaşdırma prosesinə cəlb ediləcək. Sertifikatlaşdırmanın müsahibə mərhələsinin avqustda keçirilməsi gözlənilir.

Xatırladaq ki, iyun ayının 8-də ötənilki sertifikasiyadan kəsilən təhsilverənlər üçün təkrar sertifikatlaşdırma imtahanı keçirilib. İmtahanda 7296 müəllim iştirak edib.

Təkrar sertifikasiya imtahanında 3 424 ibtidai sinif, 485 Azərbaycan dili və ədəbiyyat müəllimi test imtahanı mərhələsinin müvafiq keçid balını toplaya bilməyib.

# Bəzi iri məmurların icarə tenderlərinin şok pərdəarxası

## Hansı dövlət qurumları kimlərdən böyük pullar hesabına bina və obyekt kirayələyirlər? - İlginc detallar...



***Azərbaycanda dövlət qurumlarının “maraqlı” xərclərindən biri də icarəyə götürdükləri tikililərin icarə haqlarıdır. Belə ki, bu binaların sahiblərinin kimliyi bir çox hallarda maraq doğurur. Bir müddət əvvəl “Azpolitika” yazıb ki, çox zaman həmin bina sahiblərinin gerçək kimliyi ayrı-ayrı iri məmurlara və onların çevrələrinə gedib çıxır.***

Belə obyektlərin tikilib dövlət qurumlarına olduqca baha qiymətə icarəyə verilməsi Azərbaycanda çoxdandır məmur-biznesmenlərin qazanc yerinə çevrilib. Bu zaman əlbəttə ki, onların şəxsi əlaqələri və imkanları, eləcə də “əl əli yuyar, əl də üzü” prinsipi əhəmiyyətli rol oynayır.

Bir müddət əvvəl Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi “Qeyri-yaşayış sahəsinin icarəsi” tenderinin nəticələrini elan etmişdi. Bildirilirdi ki, tenderin qalibi Emil Vidadi Oğlu Orucov adlı fiziki şəxsdir. Məlumata görə, müqaviləyə əsasən dövlət qurumu bu şəxsin cəmi 2.000 kvadrat metrlik qeyri-yaşayış sahəsini 320 min manata icarəyə götürüb. Müqavilə həmin sahənin 12 aylıq icarəsini nəzərdə tutur. Söhbətin konkret olaraq, hansı ünvandan getdiyi göstərilmir. Ancaq məlum olan odur ki, sözügedən qurumun şöbələrinin heç biri şəhərin mərkəzində yerləşmir. Bu baxımdan 2.000 kvadrata 320 min icarə haqqı ödənilməsi kifayət qədər baha olmaqla “təəccüblü” görünür...

Sözügedən binanı icarəyə verən E.Orucovun ad və soyadı, necə deyərlər, “heç nə demir”. Ancaq Azərbaycanda hökm sürən “tender siyasəti” və bu icarə haqqının məbləği müəyyən nəticələr çıxarmağa əsas verə bilər...

Uzağa getməyək: iki il öncə deputat Cavanşir Feyziyevin Buzovnada olan obyektini Dövlət Agentliyinə bir ili 1 milyon 176 min manata kirayə verdiyi üzə çıxmışdı. Bu barədə həmin vaxt iqtisadçı Natiq Cəfərli paylaşım etmişdi: ”İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi 5 ildi fəaliyyətə başlayıb, pilot layihələr edib - bununla bağlı normal məlumatlar yaymayıb, fəaliyyəti ilə bağlı ciddi suallar var, əlçatan xidmət məsələsi axsayır, hələ bir nəfər tanımıram ki, Agentlikdən razılıq etsin.

İndi də məlum olur ki, Agentlik Buzovna qəsəbəsində 1 illiyə ofis və anbar icarəyə götürüb - müqavilənin dəyəri 1 mln. 176 min manatdır. Agentlik obyekti ayı 98 min manata icarəyə götürüb, özü də Buzovnada.

Məsələnin maraqlı tərəfi odur ki, həmin obyektin sahibi gənc bir insandır - Orxan Feyziyev. Ola bilər ki, çox bacarıqlı, təhsilli gəncdir, amma bir məsələ var ki, Orxan bəy deputat Cavanşir Feyziyevin oğludur”.

Bu faktın özü də dövlət qurumlarının icarə götürdükləri obyektlərlə, binalarla bağlı yetərincə şübhəli, qaranlıq məqamların olduğunu təsdiqləyir.

Arzulayanlar üçün başqa bir maraqlı nümunə: ötən il məlum oldu ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Sosial Müdafiə Fondunun elan etdiyi və adıçəkilən fondun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialının inzibati binasının əsaslı təmir işlərini nəzərdə tutan tenderinin nəticələri açıqlanıb, qalib də “Conco” QSC (VÖEN - 1403054601) olub.

Açıqlanan məlumatlarda bildirilirdi ki, 11.05.2023-cü il tarixindən 31.05.2025-ci il tarixinə kimi həyata keçiriləcək təmir işləri üçün DSMF “Conco” QSC-yə 7 milyon 167 min 998 manat 7 qəpik ödəyəcək.

Ancaq maraqlı burasıdır ki, hələ bu tenderdən 6 ay öncə DSMF Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialı üçün ofis sahəsi icarəyə götürüb. Aydın Akif oğlu Abasov adlı şəxsdən bir il müddətinə icarəyə götürülən 3 000 kv-metr ofis üçün DSMF 513 min 720 manat ödəyib! Qəribə deyilmi? Suallara yol açmırmı? Təmir üçün tender keçirmədən ofis icarəyə götürmək hansı məntiqə sığır? Özü də yarım milyon manatlıq icarə haqqı ilə?!

Onu da qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tabe olan qurumların bir çoxu ofis sahələrini bax bu cür suallarla dolu tenderlərlə icarəyə götürürlər. Lakin bir çox başqa qurumlarda da oxşar məsələ aktualdır. Üstəlik, hər dəfə də söhbət ən azı bir neçə yüz min manat dövlət vəsaitinin qaranlıq aqibətindən gedir.

Mövzunun geniş araşdırmaya ehtiyacı var. Odur ki, bəzi dövlət qurumlarının, iri məmurların müəmmalarla, şübhələrlə müşayiət olunan “icarə tenderləri” ilə bağlı yaxın vaxtlarda daha ətraflı bəhs edəcəyik. Bizi izləyin...

***Sənan Mirzə***

19_27 IYUl-QARA.qxd 6/13/2024 9:17 PM Page 4



# Ermənistanın yeni siyasi oyunu:

## Öz maraqlarını sülh müqaviləsinə calamağa çalışırlar

***Ermənistanın baş naziri Nikol Paşinyan sülh müqaviləsinin imzalanması ilə bağlı ikili fikirlər səsləndirir. Belə ki, o bir müddət əvvəl qeyd etmişdi ki, Ermənistanın yeni konstitusiyaya ehtiyacı var və bundan sonra sülh müqaviləsinin imzalanması ilə bağlı addımlar atıla bilər. Ötən gün isə açıqlamasında bir ay ərzində Azərbaycanla sülh müqaviləsini imzalamağa hazır olduqlarını bildirib. Paşinyan həmçinin vurğulayıb ki, sülh müqaviləsinin hazırki mətni yetərlidir.***

Paşinyanın bu açıqlamanı verdiyi gün, yəni, dünən saat 10:05-dən 17:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Havuş, Ordubad rayonunun Nürgüt, Şahbuz rayonunun Güney Qışlaq yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini bir neçə dəfə atıcı silahlardan atəşə tutub. Bu məqamda Paşinyanın yenidən ikili mövqe sərgilədiyi ilə bağlı fikirlər formalaşıb.



Məsələ ilə bağlı "Unikal"a açıqlama verən Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, indiki mərhələdə söhbət çərçivə sülh sazişindən gedir: "Bu, qısa bir sənəddir. Onun məzmunu bundan ibarət olacaq ki, orada müxtəlif prinsiplər sadalanır və müxtəlif tezislər qeyd olunur. Yekun sülh sazişi isə bir neçə ildən sonra imzalana bilər. Səbəb isə ondan ibarətdir ki, yekun sülh sazişinin imzalanması üçün bəzi praktiki məsələlər öz həllini tapmalıdır. Yəni, sərhədlərin müəyyən edilməsi, kommunikasiyaların bərpa edilməsi, hüquqi məsələlərin həll olunması və s. Biz bu fərqi yaxşı başa düşməliyik. Hüquqi məsələlərin öz həllini tapması üçün Ermənistanın konstitusiyasında dəyişiklik edilməlidir. Bu barədə məsələlər çərçivə sülh sazişində öz əksini tapacaq. Onun icrası isə daha sonra baş verəcək, çünki bunun üçün referendum və digər proseslər həyata keçirilməlidir. Ötən gün atəşkəs pozulub, həmçinin məlum olduğu kimi, hazırda Ermənistanda gərginlik mövcuddur. Bu proseslər məndə belə bir təəssürat yaradır ki, Ermənistan iqtidarı cəmiyyətdə olan gərginlik və nümayişlərdən istifadə edərək beynəlxalq qurumlara mesaj vermək istəyir ki, onlar heç bir kompromisə gedən deyillər. Ermənilər ən azından belə bir təəssürat yaratmaq istəyirlər. Yəni, Paşinyan bu etirazlardan öz xeyrinə istifadə edir", - deyə o qeyd edib.

Sabiq nazir Paşinyanın bir ay ərzində sülh müqaviləsini imzalamağa hazır olduğuna dair verdiyi açıqlama ilə bağlı da öz fikirlərini bölüşüb: "Biz başa düşməliyik ki, sülh prosesinin yekunlaşması üçün 3 ayrı sənəd imzalanmalıdır. Bunlardan birincisi üçtərəfli bəyanat oldu. Orada isə yalnız hərbi-texniki məsələlər qeyd olunurdu. Həmin bəyanatda siyasi məsələlər demək olar ki, öz əksini tapmamışdı. İndi isə digər siyasi məsələlər həll olunmalıdır. Misal olaraq, sərhədlərin delimitasiyası və demarkasiyası. Bu proses aylar, bəlkə də, illərlə davam edə bilər. Məsələn, Çinlə Sovet ittifaqı arasında delimitasiya prosesi 70 il çəkdi. Həmçinin, bizim Gürcüstanla delimitasiya və demarkasiya prosesi hələ də davam edir. Ona görə də, ilkin imzalanacaq sənəddə bir siyasi çərçivə müəyyən ediləcək ki, onun daxilində danışıqlar aparılsın. Ermənilər həmişə çalışıblar ki, çərçivə sülh müqaviləsini müxtəlif mövzularla həddindən artıq yükləsinlər və onun imzalanması mümkün olmasın. Yəni, çalışırlar ki, müxtəlif siyasi oyunlar vasitəsilə öz maraqlarını sülh müqaviləsinə daxil etsinlər. Bunun üçün ilk növbədə etirazlardan istifadə edirlər. Naxçıvanda atəşkəsin pozulmasını da bu addımlardan biri olduğunu istisna etmirəm".

Politoloq Elxan Şahinoğlu isə bildirib ki, Ermənistanın baş naziri Nikol Paşinyan sülh müqaviləsi imzalanmazdan əvvəl Azərbaycanla kommunikasiyaların açılmasını tamamilə mümkün hesab etdiyini bildirib. Onun sözlərinə görə, Paşinyan bu cür kombinasiya haqqında ilk dəfədir açıqlama verir: "Gəlin baxaq, "Praktiki addımlarla real dünyanı formalaşdırmaq, ondan sonra müqavilə imzalamaq mümkündür" - deyən Nikol Paşinyan rəsmi Bakının maneəsiz keçid şərtini qəbul etməyə hazırdırmı? Paşinyanın "praktiki addımlarla real dünya" haqqında fikrini belə oxumaq mümkündür ki, baş nazir dəhlizlə bağlı əvvəlki fikirlərini korrektə etməyə hazırdır. Amerikalı diplomatlar Paşinyana məsləhət görüblər ki, Zəngəzur dəhlizinin açılmasını ləngitməkdə davam etsə, Azərbaycan İran ərazisindən keçən Araz dəhlizinə üstünlük verəcək. Bu həm ABŞ-ın maraqlarına ziddir, həm də Ermənistanı Orta dəhliz layihəsindən kənarda qoyacaq. Paşinyanın məlum açıqlamasından bir gün əvvəl Ermənistan parlamentinin sədri Alen Simonyan da dəhlizin açılması üçün neytral ölkələrin və beynəlxalq təşkilatlardan birinin bu prosesə cəlb edilə biləcəyini söyləmişdi.

Yəni, Ermənistanın baş naziri Nikol Paşinyan sülh müqaviləsi imzalanmazdan əvvəl Azərbaycanla kommunikasiyaların açılmasını mümkün hesab etdiyini bildirsə də, Ermənistanın yeni Konstitusiyasının qəbulunu sonraya saxlayır. O rəsmi Bakının Ermənistan Konstitusiyasının dəyişdirilməsi ilə bağlı tələbini ölkəsinin daxili işlərinə qarışması kimi qiymətləndirib. Həmin Konstitusiyada qonşu ölkələrə ərazi iddiaları varsa, bu daxili məsələ deyil. Ermənistan Konstitusiyasında Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarını əks etdirən bəndlər oradan götürülməyənə qədər bölgədə sülh və əməkdaşlıq mümkün deyil. Bu haqda Nikol Paşinyanın özünün də açıqlamaları var. Aydındır ki, yeni Konstitusiyanın qəbulu və referendumun müəyyənləşdirilməsi zaman tələb edir. Ancaq Azərbaycanın və Türkiyənin gözləntisi qonşulara qarşı ərazi iddialarını əks etdirən Konstitusiyanın dəyişdirilməsi ilə bağlı İrəvanda müzakirələrin başlaması və bununla bağlı komissiyanın formalaşdırılmasıdır".

Politoloq onu da əlavə edib ki, Ermənistan hökuməti ilə Kreml arasında münasibətlərdə gərginlik hökm sürsə də, İrəvan "qırmızı çizgi"ni tam keçməyib. Onun sözlərinə görə, Ermənistanın Rusiyanın vaxtilə formalaşdırdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını tərk etməsi qərarı münasibətlərdə "qırmızı xətti"n keçilməsi olacaq: "Baş nazir Nikol Paşinyan təşkilatı tərk edəcəklərinin anonsunu bu gün parlamentdə verib. Bundan əvvəl İrəvan təşkilata maliyyə ödəməkdən imtina edib. Ermənistanın KTMT-ni tərk etməsi Ukraynada işğalçı müharibəni davam etdirən və Qərblə mübarizə aparan Kremlə ciddi imic zərbəsi olacaq".

***M.İbrahimli***




# "Cərimələr milləti boğaza yığıb" - Deputat

***"Cərimələrlə bağlı məsələni parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi ilə müzakirə etdik. Mən də çıxış etdim. Şübhəsiz ki, velosiped yollarının çəkilməsi ekoloji və mədəni cəhətdən bizə üstünlüklər verir. Bunun əleyhinə deyiləm. Arzu edirəm ki, insanlar daha çox bundan istifadə etsinlər. Ciddi narazılıqlarımı da bildirdim".***

Bunu Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli deyib. O əlavə edib: "Birincisi, görürük ki, 3 yol xətti var. İkisi maşınlar üçündür, birini isə velosiped yolu ediblər. Velosiped sürən isə yoxdur, yol bomboş qalıb, amma güclü tıxac yaranır, maşınlar keçə bilmir. Tutaq ki, taksidən düşmək istəyirsən, maşın velosiped yoluna yan alsa, dərhal cərimə olunacaq. Bəs necə olsun? Üçüncüsü, səkilərdə deyil, avtomobil yollarında velosiped xətləri çəkilir. Dördüncüsü, velosiped yolu ilə maşın yolu arasında bəzən baryerlər qoyulur. Nəhayət, cərimələr. Parklama yerləri isə çox bahadır, insanlar maşını park edə bilmirlər. Avtobus, velosiped yoluna girənləri də 100 manat cərimə edirlər. Bu cərimələr milləti boğaza yığıb. Başım çıxmır, büdcəni cərimə ilə doldurmalıyıq?! Bu nə deməkdir?! Camaatın o qədər əməkhaqqısı yoxdur".

T. Kərimli qeyd edib: "Dəfələrlə demişəm. Bizdə cərimələr Avropa səviyyəsindədir. Amma Avropada əməkhaqqı, pensiya bizdən on dəfə yüksəkdir. Cərimələr orta aylıq əməkhaqqının yüzdə biridirsə, sən də orta aylıq əməkhaqqını yüzdə biri et. Daha yüzdə on niyə edirsən?! Bu məsələlər məni çox narahat edir. Bəzi yerlərdə, ümumiyyətlə, maşın saxlamağa yer ayırmayıblar. Məsələn, köhnə "Lenin" muzeyinin ətrafında maşın saxlamaq olmaz. Arxasında kub şəklində binadır, 600 metr də ətrafı var. Bir kilometrlik ərazidə camaat maşını harada saxlasın?! Saxlayan kimi AYNA dərhal cərimə yazır. Ya yer müəyyən et, yerin yoxdursa... Cərimə, cərimə, cərimə, nə qədər olar? Narazıyam. "Ay aman, bizi mədəni görsünlər, şəhərimiz qəşəng görünsün" deyə, saxta yollar düzəldilir. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin birinci müavininə hörmət edirəm. İzah etdi, biz yol çəkməliyik ki, camaat da velosiped alsın. Bu da düzdür. Axı əsas camaatın rahatlığıdır. Nə edək, nə vaxta kimi gözləyək? Tıxaclar insanları narahat edir. Hər sahəyə cərimə tətbiq edilməsi xoşagəlməzdir. Bilmirəm, bu nə yoldur, tutublar".

19_27 IYUl-QARA.qxd 6/13/2024 9:17 PM Page 5



# Prezident bir sıra fərmanlarda dəyişiklik etdi



***Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanunun icrası ilə əlaqədar Prezidentin bəzi fərmanlarında dəyişiklik edilməsi fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, fərmana əsasən, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunun tətbiq edilməsi barədə" fərmanda dəyişikliklər edilib.

Fərmana əlavə edilən bəndə əsasən, həmin Qanunun 5-ci maddəsinin yeddinci hissəsində "qəyyumluq və himayə orqanları", 7-ci maddəsinin altıncı hissəsində "qəyyumluq və himayəçilik orqanı" və yeddinci hissəsində "qəyyumluq və himayə orqanı" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdiriləndək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur.

# Mirsaleh Seyidovun təqdimatı əsasında nazir rəisi təqaüdə göndərdi

***Ədliyyə Nazirliyi Penitensiar xidmətində növbəti kadr dəyişikliyi olub.***



"Unikal"ın əldə etdiyi məlumata görə, Penitensiar xidmətin rəisi, ədliyyə general-mayoru Mirsaleh Seyidovun təqdimatı əsasında ədliyyə naziri Fərid Əhmədov Penitensiar xidmətin Umbakı penitensiar kompleksinin rəisi, ədliyyə polkovniki Tahir Yusubov yaş həddi ilə əlaqədar təqaüdə göndərilib.

Nazirin digər əmri ilə həmin müəssisədə Əməliyyat-Rejim işləri üzrə müavin vəzifəsində işləyən Rauf Məmmədov Umbakı penitensiar kompleksinə rəis təyin olunub.

***Azər İsrafilov***

**ELAN**

**Səfərov Rüfət Vitaliy oğluna məxsus AN №045946 nömrəli bakalavr diplomuna verilmiş əlavə itdiyi üçün etibarsız sayılır.**

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Sabah 102 120 nəfər üçün "Son zəng" çalınacaq

***Bu il 102 120 nəfər XI sinfi bitirir.***

"Unikal" xəbər verir ki, bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən (MÜTDA) xəbər verilib.

Bildirilib ki, 2023-2024-cü tədris ilində ümumi təhsil müəssisələrində təhsilalanların sayı 1 706 935 nəfər təşkil edib.

Cari tədris ilində ümumi təhsil müəssisələrində 102 120 nəfər XI sinfi, 150 445 nəfər IX sinfi bitirir.

Bu tədris ilində ölkə üzrə 137 862 şagird birinci sinfi bitirir. Ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarında 87 569 uşaq təhsil alıb.

# Hikmət Hacıyev NATO-da bir sıra görüşlər keçirdi

***Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev 12-13 iyun 2024-cü il tarixlərində Belçikada səfərdə olub.***

"Unikal" Azərbaycanın NATO-dakı nümayəndəliyinə istinadən xəbər verir ki, səfər çərçivəsində Hikmət Hacıyev NATO mənzil-qərargahında müttəfiq dövlətlərin iştirakı ilə "NATO+Azərbaycan" formatında siyasi dialoqda iştirak edib.



İclas zamanı Hikmət Hacıyev müttəfiqlərlə Azərbaycan-NATO tərəfdaşlığının hazırkı vəziyyəti və gələcək perspektivləri, ölkəmizin regional nəqliyyat bağlantıları və Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rolu, COP29-a hazırlıq prosesi, Azərbaycanın iqlim və yaşıl həmrəylik gündəliyi, eyni zamanda Ermənistanla normallaşma prosesi və sülh gündəliyinin irəlilədilməsi ətrafında müzakirələr aparıb.

Müttəfiqlər Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək bildirib və NATO-nun etibarlı tərəfdaşı olaraq Azərbaycanın Alyansla tərəfdaşlığı yüksək qiymətləndirilib, habelə NATO-nun missiya və əməliyyatlarına töhfələri, Ukraynaya göstərdiyi humanitar dəstəyi təqdir edilib.

Eyni zamanda, Azərbaycanın regional nəqliyyat bağlantılarında və Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rolu vurğulanıb, ölkəmizin yaşıl enerjiyə keçid və iqlim dəyişikliyinə qarşı mübarizədə səyləri alqışlanaraq COP29-a sədrliyinə dəstək ifadə olunub. Müttəfiqlər yekdilliklə Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə və sülh gündəliyinə dəstək bildirərək iki ölkə arasında dövlət sərhədinin delimitasiyasına dair əldə olunan son razılaşmanı alqışlayıb.

Səfər çərçivəsində Hikmət Hacıyev, həmçinin NATO Baş katibinin İnnovasiya, Hibrid və Kiber üzrə köməkçisinin müavini Ceyms Appaturay, NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavier Kolomina və Türkiyənin NATO yanında daimi nümayəndəsi Zeki Levent Gümrükçü ilə görüş keçirib.

Qeyd edək ki, bu il Azərbaycan-NATO tərəfdaşlığının əsasını təşkil edən Sülh Naminə Tərəfdaşlıq (SNT) Çərçivə Sənədinin imzalanmasının 30-cu ildönümü tamam olur.

# Əli Əsədov əmr imzaladı

***Nazirlər Kabineti "Meliorasiya və irriqasiya sistemlərinin kadastrının aparılması Qaydası"nı təsdiq edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, bu qayda "Meliorasiya və irriqasiya haqqında" qanuna uyğun hazırlanıb, meliorasiya və irriqasiya sistemlərinin kadastrının formalaşdırılması və aparılması qaydasını müəyyən edir.

Meliorasiya və irriqasiya sistemlərinin kadastrının formalaşdırılması, aparılması, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsinin vəsaiti və qanunla müəyyən olunan digər mənbələr hesabına maliyyələşdirilir.

Bundan sonra Meliorasiya və irriqasiya sistemlərinin kadastrına aşağıdakı məlumatlar daxil ediləcək:

- meliorasiya və irriqasiya sistemlərinin mülkiyyətçisi (balanssaxlayıcısı) olan hüquqi şəxsin (idarənin, təşkilatın) adı, hüquqi ünvanı və fiziki şəxsin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi;
-meliorasiya və irriqasiya sistemlərinin təyinatından və istifadə rejimindən asılı olaraq adı və növü;
- meliorasiya və irriqasiya sistemlərinin texniki göstəriciləri;
- meliorasiya və irriqasiya sistemlərinin üzərindəki qurğuların adı və növü;
- meliorasiya və irriqasiya sistemlərinin yerləşdiyi ərazi vahidinin adı, xidmət etdiyi ərazi və onların iqtisadi qiymətləndirilməsini əhatə edən digər məlumatlar;
- meliorasiya və irriqasiya sistemlərinin texniki vəziyyəti və balans dəyəri;
- meliorasiya və irriqasiya sistemlərinin aşınma dəyəri;
- meliorasiya və irriqasiya sistemləri kadastrının məlumat bazasında toplanmış informasiyaya uyğun olaraq rəqəmsal xəritələr, planlar və sxemlər.

# Baş nazir hökumət üzvlərini topladı

***Azərbaycan Respublikasının İqtisadi Şurasının və Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının birgə iclası keçirilib.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən "Unikal"a bildirilib ki, iyunun 13-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində "Azərbaycan Respublikasının dövlət müəssisələrinə özəl investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 avqust tarixli 4078 nömrəli Sərəncamından irəli gələn tapşırıqların icra vəziyyəti, o cümlədən Sərəncama əsasən, özəl investisiyaların cəlb edilməsi nəzərdə tutulan dövlət müəssisələrinin (Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturuna daxil olan "Azərikimya" İstehsalat Birliyi (Etilen-Polietilen zavodu),



Karbamid zavodu və Metanol zavodu, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti, "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti, "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti) hazırlıq vəziyyəti, dövlət müəssisələrinin kommersiya və maliyyə təhlilləri, hər bir müəssisə üzrə fərdi yol xəritəsi, özəl investisiyaların cəlb edilməsi üzrə qanunvericilik bazasına tələb olunan dəyişikliklər, həmçinin biznesə yönəlik dövlət xidmətləri və digər cari məsələlər ətraflı müzakirə olunub.

İclasda iqtisadiyyat naziri Mikayıl Cabbarovun, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin və Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktoru Ruslan Əlixanovun məruzələri dinlənilib.

İclasın yekununda İqtisadi Şuranın və AİH-in Müşahidə Şurasının üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla, müzakirə edilən məsələlər barədə qərarlar qəbul olunaraq aidiyyəti qurumlara və AİH-in İdarə Heyətinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, iclasda dövlət müəssisələrinin rəhbər şəxsləri də iştirak ediblər.

# İlham Əliyev Palçıq Vulkanları Turizm Kompleksinin açılışında...

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abşeron rayonunun Qobustan kəndinin ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin açılışında iştirak edib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev dövlətimizin başçısına kompleksdə görülmüş işlər barədə məlumat verdi.

Qeyd edək ki, təbiətin maraqlı hadisəsi olan palçıq vulkanları dünyanın bir çox ölkəsində mövcuddur. Azərbaycan palçıq vulkanlarının nadir və klassik inkişaf regionu kimi tanınır. Yer kürəsində məlum olan 2 mindən artıq palçıq vulkanının 350-dən çoxu Azərbaycanın şərqində və Xəzər akvatoriyasında yerləşir. Palçıq vulkanları əsasən Abşeron yarımadası, Bakı ətrafındakı adalar qrupu, Şamaxı, Qobustan və cənub-şərqi Şirvanda yayılıb. Palçıq Vulkanları Turizm Kompleksində "Qılınc" palçıq vulkanını yaxından izləmək mümkündür. Bu vulkanlar bir sırada düzülmüş 8 sopkadan (təpə) ibarətdir. Sopka brekçiyası (iri qrunt süxurları) böyük bir sahəni əhatə edərək şimal-şərqə qədər uzanan iki zolaq əmələ gətirib. İyirmi hektar sahəyə yayılan brekçiyanın uzunluğu 300-500 metrdir. Bu zolaqların eni isə bəzi yerlərdə 50 metrə çatır. Ümumilikdə ölkəmizdəki vulkanların 60 faizi aktiv sayılsa da, elmi mənbələrdə "Qılınc" vulkanının güclü püskürmələri barədə məlumata rast gəlinmir.

Prezident İlham Əliyevə məlumat verildi ki, Palçıq Vulkanları Turizm Kompleksi 12 hektar ərazidə tikilib. Burada inzibati bina inşa olunub. Yaradılan yeni turizm infrastrukturu yerli əhali, xüsusilə ətraf ərazilərdə məskunlaşmış insanlar üçün 60-dan çox yeni iş yerinin açılmasına imkan verib. Kompleksin Turizm İnformasiya Mərkəzi sərgi zalından və emalatxanadan ibarətdir. Mərkəzdə palçıq vulkanlarının xüsusiyyətləri, təbii və müalicəvi özəllikləri haqqında məlumat əldə etmək, palçıq vulkanının maketi ilə tanış olmaq mümkündür. Burada, həmçinin Azərbaycanın hər yerindən toplanmış 80-ə yaxın nadir mineral nümayiş etdirilir. Sərgidə mineral nümunələrinin adı, kimyəvi tərkibi və götürüldüyü yatağa dair məlumatlar da yer alır. Emalatxanada isə dulusçuluq və neftlə rəsmlərin çəkilməsi üzrə master-klaslar təşkil ediləcək.

Kompleksin Təbiət tarixi sərgi zalı eksponatların zənginliyi ilə böyük maraq doğurur. Sərginin "Böyük pişiklər", "Qobustan faunası", "Azərbaycanın vəhşi heyvanlarının ayaq izləri", "Azərbaycanın həşərat dünyası", "Kiçik ölçülü heyvan skeletləri" guşələrində Azərbaycan və dünya faunasına aid vəhşi və ev heyvanlarının skeletləri, Azərbaycan təbiətinə aid olan həşəratlar, suda-quruda yaşayanlar və sürünənlər sərgilənir. Sərgidə nümayiş etdirilən bütün heyvan skeletləri və canlılar orijinal eksponatlardır. Bu eksponatlar bioetika normalarına uyğun olaraq hazırlanıb və bioloji ölümdən sonra Azərbaycan mütəxəssisləri tərəfindən onilliklər ərzində müxtəlif yerlərdən toplanmış heyvan skeletlərindən ibarətdir. Təbiət tarixi sərgisi Azərbaycanın faunasının zənginliyini, biomüxtəlifliyini nümayiş etdirir. Sərgidə Azərbaycan və dünya faunasına aid 98 heyvan skeleti, 870 müxtəlif növ qurudulmuş həşərat, xüsusi məhlulda nümayiş etdirilən 57 canlı, bir sıra sürünən və suda-quruda yaşayan heyvanlar, həmçinin paleontoloji eksponatlar nümayiş etdirilir. Uşaqların və məktəblilərin ətraf aləm haqqında maraqlarını artırmaq və onlarda heyvan skeletləri barədə təəssürat yaratmaq məqsədilə divarlarda müxtəlif heyvanların şəkilləri və illüstrasiyaları sərgilənir. Burada, həmçinin milli parklarımızda dövlət mühafizəsinə götürülmüş bir sıra heyvanların, o cümlədən bəbir, bezoar keçisi, ceyran, Xəzər suitisinin arealları haqqında məlumat verilir.

Kompleksdə yaradılmış Minerallar sərgisində isə Azərbaycan ərazisindən tapılan 80-ə yaxın fərqli növ mineral nümayiş etdirilir. Ziyarətçilər burada ölkəmizin hər yerindən - Qobustandan tutmuş Naxçıvana qədər əksər bölgələrdən gətirilmiş gözəl və nadir qiymətli daşlar, kristallar və geoloji nümunələri görə bilərlər. İki hissədən ibarət sərginin birinci bölməsində palçıq vulkanlarının püskürdüyü qaya brekçiyasının nümunələri, digər bölmədə isə ölkəmizdəki müxtəlif faydalı qazıntı yataqlarında tapılan minerallar nümayiş etdirilir. Burada ziyarətçilərə Yerin təki, geoloji proseslər, süxurların və mineralların əmələ gəlməsi haqqında da məlumatlar təqdim olunur. Palçıq vulkanlarının ətrafında müasir turizm infrastrukturunun yaradılması bu ərazilərdə yerləşən vulkanlar haqqında ictimai maarifləndirmənin artmasına və onların təbiət irsi kimi təbliğinə şərait yaradacaq.



Qeyd edək ki, ərazidə 110 nəfərlik restoran da tikilib, turistlərin vulkanları izləməsi üçün piyada yolu çəkilib. Burada panoramlı müşahidə nöqtəsi və meydança da salınıb. Bu meydançaya qalxmaqla hündürlükdən ətrafdakı palçıq vulkanlarını seyr etmək, maraqlı vaxt keçirmək mümkündür.

Palçıq Vulkanları Turizm Kompleksinin ərazisində turistlərin rahat gediş-gəlişini təmin etmək üçün avtodayanacaq salınıb. Əyləncəli vaxt keçirmək istəyən turistlər ekoloji cəhətdən təmiz nəqliyyat vasitəsi olan kvadrosikllərlə bu çətin relyefli ərazidə tura qoşulmaq imkanı əldə edəcəklər.

## ARDNF-nin İcraçı direktoruna müavin təyin edildi



***Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) İcraçı direktoruna müavin təyin edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, Bəhruz Fərman oğlu Bəhramov ARDNF-in İcraçı direktoruna müavin təyin olunub.

Qeyd edək ki, Bəhruz Bəhramov 2020-ci ildən hazırkı tarixədək ARDNF-nin İcraçı direktorunun müşaviri vəzifəsini icra edib.

Daha öncə ARDNF-nin Risklərin idarə edilməsi və İnvestisiya departamentlərində müxtəlif vəzifələrdə, o cümlədən, 2014-2016-cı illərdə Risklərin idarə edilməsi departamentinin direktor müavini, 2016-2020-ci illərdə Risklərin idarə edilməsi departamentinin direktoru vəzifəsində çalışıb.

## Nazir Abel Məhərrəmovun rəis qardaşını işdən çıxardı

***Ədliyyə Nazirliyində kadr dəyişiklikliyi olub.***

"Unikal" Bakıvaxtı.az-a istinadən xəbər verir ki, bununla bağlı ədliyyə naziri Fərid Əhmədov əmr imzalayıb.

Əmrə əsasən, nazirliyin kadr idarəsinin rəisi Rauf Məhərrəmov tutduğu vəzifədən azad olunub. Onun vəzifəsi Ələkbər Nəbiyevə həvalə olunub.

Xatırladaq ki, Rauf Məhərrəmov BDU-nun sabiq rektoru Abel Məhərrəmovun qardaşıdır.

## Tədris Cərrahiyyə Klinikasına rəhbər təyin edildi



***Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasına (TCK) yeni direktor və baş həkim təyinatı olub.***

Bu barədə "Unikal"a universitetdən məlumat verilib.

Qeyd olunub ki, səhiyyə naziri Teymur Musayevin əmrinə əsasən, klinikanın direktoru vəzifəsinə III cərrahi xəstəliklər kafedrasının dosenti Əsədulla Sultanov, baş həkim vəzifəsinə isə Neyrocərrahiyyə kafedrasının dosenti, TCK-nın Neyrocərrahiyyə şöbəsinin müdiri Cəmil İskəndərov təyin edilib.

Yeni direktoru ATU-nun rektoru, professor Gəray Gəraybəyli kollektivə təqdim edib.

## Bayram günlərində bu marşrut üzrə əlavə 12 qatar reysi təyin edilib

***"Azərbaycan Dəmir Yolları" QSC (ADY) Milli Qurtuluş Günü və Qurban bayramı ilə əlaqədar qeyri-iş günlərində Bakı-Ağstafa-Bakı marşrutu üzrə artan sərnişin tələbatının qarşılanması məqsədilə xəttə əlavə 12 qatar reysi təyin edib.***

"Unikal" bu barədə ADY-yə istinadən xəbər verir. Marşrut üzrə təyin edilmiş qatarlar 14, 15, 17, 18 və 19 iyun tarixlərində hər iki istiqamətdə, 16 iyun tarixində isə bir istiqamətdə - Bakıdan Ağstafaya hərəkətdə olacaq.

Bununla yanaşı, 14 iyundan etibarən Bakı-Ağstafa-Bakı marşrutu üzrə müasir və komfortlu yeni "Stadler" qatarları hərəkətə başlayacaq. Sürətli qatarlar hər gün Bakıdan Ağstafaya saat 08:00 və saat 18:00-da, Ağstafadan Bakıya isə saat 08:20 və saat 18:20-də yola düşəcək. Həmçinin yeni qatarlara ilk dəfə olaraq Ləki və Ucar stansiyalarında da dayanacaq verilir.

## "Çox istəyərdim ki, atam da yanımda olsun" - Polad Həşimovun oğlu



***Şəhid övladları üçün keçirilən "Məzun günü"ndə 40 şəhid əmanəti bir araya gəlib.***

"Unikal" xəbər verir ki, bir neçə şəhid övladı öz fikirlərini AzTV Xəbər komandası ilə bölüşüb.

Onlardan biri də şəhid general-mayor Polad Həşimovun oğlu Davud Həşimov olub: "Bu 11 il ərzində mən çox xoş xatirələr topladım, təcrübələr qazandım. Və səbrin,zəhmətin önəmini öyrəndim. Çox istəyərdim ki, atam da yanımda olsun. Onunla birgə məzun günümü qeyd etmək istərdim. Amma mən atamın övladı kimi onun irsini davam etdirəcəm, onun dəyərlərini yaşadıqca yaşadacam".

## Muxtar Babayev səfirlə görüşdü

***Çex Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Milan Sedlaçek ilə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev arasında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüşdə iki ölkə arasında ətraf mühitin mühafizəsi, gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

Eyni zamanda, ölkəmizin bu il ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıqla bağlı fikir mübadiləsi aparılıb.

## Nazir tanınmış xanım aparıcıya vəzifə verdi



***Bir neçə gün öncə ATV telekanalından ayrılan tanınmış aparıcı Maya İmran Novruzovanın yeni iş yeri məlum olub.***

O, bundan sonra fəaliyyətini dövlət qurumunda davam etdirəcək. M.Novruzova Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin Strateji Kommunikasiya Departamentinin Media və İnformasiya təminatı şöbəsində baş mütəxəssis vəzifəsinə təyin olunub.

Qeyd edək ki, Maya İmran Novruzova 2018-ci ildən ATV-də çalışırdı. O, bir müddət "ATV səhər" proqramının da aparıcısı olub(oxu.az).

## Təhsil tələbə krediti alanların sayı açıqlandı

***Son iki tədris ilində tələbə kreditindən yararlanan məzunların sayı 3500-dən çoxdur.***

"Unikal" xəbər verir ki, bunu Təhsil Tələbə Krediti Fondunun İdarə Heyətinin sədr müavini Bəhruz Əzimov deyib.

O bildirib ki, həm sosial, həm də standart kredit üzrə güzəştlər var: "Sosial kredit alan tələbə semestr üzrə ümumi orta müvəffəqiyyət göstəricisi olaraq 71 bal toplayarsa, həmin semestr üzrə gələcəkdə geri ödəmə vaxtı faiz hesablanmır. Əgər tələbə bütün semestrlər üzrə 91 bal üzəri nəticə əldə edərsə, təhsilini əlaçı olaraq başa vurarsa, bu zaman onun aldığı kreditin 50%-i bağışlanır. Standart tələbə kreditində isə vəziyyət fərqlidir. Tələbənin kredit aldığı semestrin sonunda ümumi orta müvəffəqiyyət göstəricisi 91 və üzərində olarsa, həmin semestr üzrə vəsait üçün faiz hersablanmır. Bütün semestrlər üzrə əlaçı olan tələbələrə isə standart kredit vəsaitinin 25 faizi bağışlanır".

Onun sözlərinə görə, iki ilin nəticəsi olaraq tələbə kreditindən yararlanan məzunların sayı 3500-dən çoxdur:

"Bu, 6500-dən çox müqavilə deməkdir. Onların sırasında 164 tranş üzrə 50 faiz güzəşt təbiq edilib. 367 tranş üzrə isə 25 faiz güzəşt edilib. 2301 tranş üzrə faizin hesablanması dayandırılıb".

# "Sosial vəziyyətin ağırlığı boşanmalara səbəb olur"

## Tahir Kərimli: "Biabırçılıqdır, bunu cəmiyyətdəki mənəvi deqradasiya ilə bağlayıram"

***Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini, deputat Tahir Kərimli "Unikal"a müsahibə verib. O, yaxın qohumların evliliyinin qadağan edilməsi məsələsindən, bunun qeyri-rəsmi nikahların sayının artmasına necə təsir edəcəyindən və boşanmaların sayının artmasından danışıb.***

***-Tahir müəllim, bu günlərdə komitə iclasında yaxın qohumların nikahının qadağan edilməsi müzakirə olunaraq plenar iclasa tövsiyə olunub. Bu qadağa nə ilə bağlıdır?***

-Bəzən yaxın qohumlar ailə qururdular. Açığını deyim ki, mənim nəslimdə də olurdu. İndi qanuna belə bir düzəliş edilir ki, əmi, xala, dayı və bibi uşaqlarının evlənməsinə qadağa qoyulur. Buna etiraz etmirəm. Məsələ belə qoyulur ki, yaxın qohumların evliliyindən doğulan uşaqlarda xəstəlik daha çoxdur. Belə ki, dünyada yenidoğulan uşaqlarda xəstəlik 3 faiz olursa, bu, yaxın qohumların evliliyindən doğulan uşaqlarda 6 faiz təşkil edir. Bu məsələlərə etiraz etmərəm. Bizim komitədə də bu dəyişiklik müzakirə olundu. Orada da çıxış edib müəyyən narazılığımı bildirdim. Narahat olduğum başqa bir məsələdir. Necə olur ki, 16 yaşdan yuxarı nikahdan kənar insanların münasibətdə olmaları birgəyaşayışı qəbul edilir. Amma yeni təklif olunan dəyişikliklə 17 yaşdan nikah kəsdirmək olmaz. Hətta 16 yaşdan sonra nişanlansa belə cərimə olunsun və s. Ola bilər ki, insan 17 yaşında nişanlanar, 18 yaşı tamam olandan sonra evlənər. Digər bir məsələ ondan ibarətdir ki, 18 yaşına bir neçə ay qalıb və valideyn ağır xəstə olduğu üçün övladının toyunu görmək istəyir. Nəyə görə bu olmasın? Onun dərdini çəksinlər ki, 16 yaşdan sonra istənilən adam əxlaqsızlıq edir, birgə yaşayır və onlara qanunla heç bir cəza nəzərdə tutulmur. Məgər onların uşaqları olmayacaq və ya cinsi xəstəliklər törədə bilməz. 16 yaşda əyri işlərlə məşğul olanda uşaq psixologiyası pozulmur, amma ata-ana qız övladının 18 yaşına 3 ay qalmış toy edəndə uşaq psixologiyası pozulur? Belə halların əleyhinəyəm.

***-Belə fikirlər səsləndirilir ki, son təklif olunan qadağalar qeyri-rəsmi nikahların sayını artıracaq. Sizcə, bu məqam qeyri-rəsmi nikahları çoxaldacaq?***

-Həmin təkliflər arasında eyni zamanda molla kəbininin kəsilməsi qadağan olunur. Yəni, yetkinlik yaşına çatmayanların kəbinini kəsənlər cərimələnəcək. Azərbaycan dünyavi dövlətdir və hüquqi baxımdan buna pis baxmıram. Hər bir halda hüquqi akt lazımdır. Yəni, dövlət tərəfindən nikah qeydiyyata alınmalıdır. Məsələ burasındadır ki, rəsmi nikaha imkan verməyəcəksən, qeyri-rəsmi evlənəcəklər. Məsələn, 17 yaşı var və nişan mərasimi keçirir. Nə bilirsən ki, bu yaşda evlənəcək? Gələndə də deyəcəklər nişanı indi edirəm, 18 yaşdan sonra evlənəcəm. Ola bilər ki, birgə yaşasınlar. Hansısa orqan onların arxasınca düşəsi deyil ki, birgə yaşayırlar ya yox. Əlbətdə qeyri-rəsmi yaşayanların sayını artıracaq. Ona görə ki, qanunla qeyri-rəsmi yaşayanların cəzalandırılması nəzərdə tutulmur. 16 yaşdan yuxarı hər kəs qeyri-rəsmi yaşaya bilər.

***-Son vaxtlar boşanmaların sayı artıb. Belə ki, statistikaya diqqət etdikdə, bu ilin yanvar-fevral aylarında gün ərzində 50-dən çox boşanma olub. Belə məqamda təklif olunan dəyişikliklər nikahların sayına necə təsir edəcək?***

-Sosial vəziyyətin ağırlığı boşanmalara səbəb olur. Amma bir məsələni qeyd edim ki, İkinci Dünya müharibəsindən sonra insanlar kütləvi aclıq şəraitində idi. Niyə belə bir şəraitdə boşanmırdılar? Ağır vaxtlarda belə insanlar sadiq qalırdılar, boşanmırdılar. Hətta həyat yoldaşını itirən qadınlar dul qalırdılar, ərə getmirdilər. Bunu daha çox psixologiya ilə bağlayıram. Sosializm sistemi dağılandan sonra kapitalizm hər şeyə icazə verdi. O cümlədən qeyri-rəsmi yaşamağa icazə yaradıldı. Xüsusilə, sosial şəbəkələr yaranandan sonra bunun kütləvi təbliğatını gördük. İnsanlar daha sərbəst olmağa başladılar. "Güclü qadınam, boşanacam tək yaşayacam" kimi fikirlər oldu. Dəb düşüb ki, ərə gedib bir uşaq dünyaya gətirsin və sonra boşanıb aliment alsın. Məhəbbət, sevgi, doğmalıq olmalıdır. İnsan ailə quranda o deməkdir ki, doğmandır. Bu hisslərin çoxu itdi. İndi baxırsan illərlə qeyri-rəsmi yaşayırlar. Bunu daha çox psixoloji amillə bağlayıram ki, insanlar çox sərbəstlik qazandılar. Baxırsan ki, asanlıqla ailələrini dağıdırlar. Çox vaxt görürsən ki, ailəlidir və bir başqası ilə qeyri-rəsmi yaşayır. Biabırçılıqdır. Bunu cəmiyyətdəki mənəvi deqradasiya ilə bağlayıram. Mənəvi deqradasiya hakim vəziyyət alıb. Ona görə də boşanmalar çoxdur. Boşanmaların 20 faizini sosial vəziyyətlə, 80 faizini isə özünü daha sərbəst, azad, ailə məsuliyyətindən uzaq olması ilə əlaqələndirirəm.



***Anar Kəlbiyev***

19_27 IYUI-QARA.qxd 6/13/2024 9:17 PM Page 8



# Misir Mərdanovun növbəti absurdu

## Sabiq nazir "araşdırılsın" deyir, birdən məlum olsa ki...

***Bu il iyunun 8-də təhsilverənlər üçün təkrar sertifikatlaşdırma imtahanında iştirak edən 7 296 müəllimdən 3909-u (3 424 ibtidai sinif, 485 Azərbaycan dili və ədəbiyyat müəllimi) keçid balını toplaya bilməyib. Bu da cəmiyyətdə müzakirələrə səbəb olub.***

Təhsil ekspertləri və sosial şəbəkə istifadəçiləri bu vəziyyəti "biabırçılıq" adlandırıblar.

Ən maraqlı məqamlardan biri isə müzakirələrə keçmiş təhsil naziri Misir Mərdanovun da qoşulmasıdır. O, Bakupost-da təhsil sahəsi ilə bağlı ən çox müzakirə edilən mövzulardan biri məktəblərdə rüşvətlə müəllimliyə qəbulun geniş yayılması barədə idi. Hələ biz saxta diplom qalmaqallarını xatırlatmırıq!

Ötən il mətbuata açıqlamasında təhsil eksperti Elçin Əfəndi bildirmişdi ki, vaxtilə müəllimlərin hansı qaydada işə qəbul edildiyini hamı bilir: rüşvət, tapşırıq və s. Nəticədə xeyli sayda yerində olmayan pedaqoji kadrlar məktəblərə ayaq açıb. Bu gün təhsilin keyfiyyətini aşağı salan əsas faktorlardan biri budur: "Bu gün faktiki araşdırma tələbi haqlı olduğu qədər də absurddur. Niyə? Deyək ki, araşdırma aparıldı və...

Və aydınlaşdı ki, bu gün sertifikatlaşdırma imtahanlarında biabırçı nəticə göstərən müəllimlərin xeyli hissəsi məhz onun dövründə işə qəbul olunublar, bax onda Mərdanov məsələyə necə reaksiya verəcək? Nə deyəcək? Yoxsa nazir olduğu zaman təhsil sektorunu ağuşuna alan rüşvət və korrupsiyadan sanki xəbərsizmiş kimi bir müddət əvvəl dediyi sözləri təkrarlay-



a açıqlamasında nəticələri qiymətləndirərkən "Çox pis hadisədir. Danışılası deyil. Əlbəttə, səbəbləri araşdırılmalıdır" deyib. Mərdanov, öz deyimi ilə söyləsək, "çox pis hadisə" adlandırdığı nəticələri göstərən müəllimlərlə bağlı sual da edib: "Bəs bunlar necə müəllimliyə qəbul olunublar? Bunlara imtahan edib, qiymət verənlər kimlərdir? Bunlar araşdırılmalıdır ki, qarşıda gələn müddətdə belə hallar olmasın".

Açığı, Mərdanovun qoyduğu suallara prinsip etibarilə heç bir iradımız yoxdur. Sabiq nazir haqlıdır - sertifikatlaşdırma imtahanlarında ən sadə, bəsit, primitiv sualları belə yanlış cavablandıran müəllimlərin işə necə qəbul edildiyinin həqiqətən də araşdırmaya ehtiyacı var.

### Lakin...

Lakin iş burasındadır ki, elə Mərdanovun nazir işlədiyi illər-

olaraq fəaliyyət göstərən müəllimlərin müəyyən bir hissəsi vaxtilə qeyri-qanuni yollarla diplomlara sahib olublar. Bu da əsasən, 2010-cu ilə qədər olan dövrü əhatə edib. İstər məktəblərdə, istərsə də, yuxarı təhsil pilləsində müəyyən fənnlər üzrə tədris aparan müəllim heyəti var ki, onlar təəssüflər olsun ki, ya saxta yolla diplom əldə ediblər, ya da ölkəmizdə tanınmayan hansısa universitetin diplomuna sahibdirlər".

Nəzərə alsaq ki, Mərdanov 1998-ci ildə təhsil naziri təyin edilib və düz 15 il (2013-cü ilədək!) həmin vəzifədə çalışıb, belədə onun özünü məsuliyyətdən tamamilə kənar göstərməsi anlaşılan deyil.

Təhsil ekspertinin yuxarıdakı açıqlamasından da görünür ki, sertifikatlaşdırma imtahanlarının ortaya çıxardığı acı mənzərənin kökü xeyli əvvələ, elə Misir müəllimin təhsil sektoruna rəhbərlik etdiyi dövrə gedib çıxır. Belədə onun

acaq? Bu sözlərdən xəbərsiz olanlar, ya da xəbəri olub unudanlar üçün həmin açıqlamanı yenidən yayımlayırıq: "Bütün fəaliyyətim dövründə heç kimdən rüşvət almamışam. Harada işləmişəmsə, çalışmışam ki, düzgün işləyim, vətənimə, xalqıma, millətimə xidmət edim və etmişəm də. Mən bu gün onun nəticəsini görürəm. Hara gedirəmsə, mənə hörmətlə yanaşırlar..."

### Ola bilər... Bəlkə də...

Ancaq bu danılmaz faktdır ki, böyük əksəriyyət üçün Mərdanovun nazir olduğu dövrdə dərsliklərdən tutmuş məktəb tikintisinə, müəllimlərin işə qəbulundan tələbə köçürmələrinədək az qala təhsillə bağlı hər məsələ qaranlıq və şübhə dolu məqamlarla "zəngin" idi. Məgər "fondpulu", "süpürgəpulu", "8 martpulu" kimi "terminlər" dilimizə məhz Misir müəllimin təhsilə rəhbərlik etdiyi dövrdə daxil olmadımı? Eyni şagird tutumuna malik və daha keyfiyyətli məktəbi Təhsil Nazirliyinin tamamilə korrupsiyalaşmış tikinti idarəsinin hardasa 4-5 dəfə şişirdilmiş qiymətlərlə inşa etdiyi ortaya çıxmadımı? Həmin idarənin rəhbərinin elə sabiq nazirin öz yaxın qohumu olduğu sanki unudulubmu?

Bəli, Misir müəllim haqlıdır, təhsilimizdəki bütün neqativliklərin kökləri araşdırılsın. Hətta araşdırılmaqla qalmasın, səbəbkarlar müəyyənləşdirilsin və cəzalandırılsın!

Lakin birdən aydınlaşsa ki, həmin köklər eks-nazirin vəzifədə olduğu illərə gedib çıxır, bax onda necə olacaq? Mərdanov keçmiş ağır xətaların, səhvlərin, yumşaq desək nöqsanların cəzasını çəkməyə razılaşacaqmı?!

***Toğrul Əliyev***

# "Vətəndaşa hər hansı əlavə maliyyə öhdəliyi yaratmaq fikrimiz yoxdur" - Nazir müavini



***"Əslində bu gün inkişaf etmiş ölkələrdə elektron dövlət xidmətləri vətəndaşa pulsuz təqdim olunur. Vətəndaş elektron dövlət xidmətindən pulsuz olaraq istifadə etməlidir. Hətta xaricdə tətbiqlər (application) internetsiz, "offline" rejimdə çalışır. Vətəndaş internet xərci ödəmədən dövlət xidmətinə çıxış əldə etməlidir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında deputat Vüqar Bayramov deyib. O bildirib ki, elektron imza xərcdir və elektron imzanın xərci son illər artıb: "Biz əslində əmək müqavilələrini elektronlaşdırmaqla elektron imzaya məcbur edirik. Elektron imzanın məcbur edilməsi xüsusən də aqrar sektorda çalışan 38 % insanımız üçün əlavə xərc yaradır. Sualım bundan ibarətdir ki, ümumiyyətlə elektron əmək müqavilələrin "offline" rejimdə işləməsi, elektron imzanın əvəzlənməsi nəzərdə tutulubmu? Əgər əvəzlənmə olmayacaqsa, elektron imzanın xərclərinin azaldılması ilə bağlı müzakirələr gedirmi?"

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev cavab olaraq bildirib ki, nazirliyin vətəndaşlara təqdim etdiyi bütün xidmətlər ödənişsizdir: "Elektron platformalardan istifadə üçün də ödəniş yoxdur. Əmək müqavilələrinin elektron əmək müqaviləsinə keçidi layihəsi çərçivəsində vətəndaşlar üçün hər hansı xərcin təyin edilməsi nəzərdə tutulmayıb. Bu çərçivədə elektron imzanı alacaqlarsa, onun üçün hər hansı ödəniş edilməyəcək. Burada vətəndaşa münasibətdə hər hansı əlavə maliyyə öhdəliyi yaratmaq fikrimiz yoxdur".

***Anar Kəlbiyev***

# Komitə sədri Fuad Muradov Tokio nümayəndəliyində olub




***Yaponiyada səfərdə olan Azərbaycan Respublikasının Diaspora ilə İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Türkiyənin bu ölkədəki səfiri Korkut Güngen ilə görüşüb.***

"Unikal" xəbər verir ki, qonağı səmimi salamlayan səfir Yaponiyadakı türk icmasının üzvlərinin sayının ildən-ilə artdığını bildirib.

Görüşdə komitənin fəaliyyəti, həyata keçirdiyi layihələr və Yaponiyadakı Azərbaycan icması barədə məlumat verən sədr bir çox sahələrdə olduğu kimi, diaspor və lobbiçilik sahəsində də Azərbaycan-Türkiyə əməkdaşlığının "bir millət, iki dövlət" fəlsəfəsinə uyğun davam etdirildiyini bildirib. Xarici ölkələrdə Azərbaycan və Türkiyə icmalarının birgə fəaliyyətindən məmnunluq ifadə olunub.

Görüşdə Azərbaycanın Yaponiyadakı səfiri Gursel İsmayılzadə və Azərbaycan-Yaponiya Dostluq Mərkəzinin rəhbəri Xəlil Kələntər də iştirak edib.

Növbəti görüş Yunus Emre İnstitutunun Tokio nümayəndəliyində keçirilib. Nümayəndəliyin rəhbəri Hüseyn Umit Tuna həyata keçirdikləri layihələr barədə məlumat verib, Yaponiyadakı Azərbaycan icması ilə əməkdaşlıqda maraqlı olduqlarını bildirib.

Diasporla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan Diasporuna Dəstək Fondunun fəaliyyətindən söz açan sədr bütün dünyada Azərbaycan icmasının türk icması ilə sıx əməkdaşlıq etdiyini, Vətən müharibəsi dövründə bunun uğurlu nəticələr verdiyini vurğulayıb, komitənin nəşrlərini Yunus Emre İnstitutunun Tokio nümayəndəliyinə hədiyyə edib. Görüşdə Azərbaycan-Yaponiya Dostluq Mərkəzinin sədri, professor Xəlil Kələntər də iştirak edib.

Komitə sədri Sasakava Sülh Fondunun sədri cənab Yohei Sasakava ilə də görüşüb. Qonağı səmimi salamlayan Yohei Sasakava dünyada sülhün vacibliyindən söz açıb, fondun fəaliyyətindən və münaqişələrdən əziyyət çəkən insanlara göstərdiyi yardımlardan bəhs edib.

Görüşdə komitənin fəaliyyəti və həyata keçirdiyi layihələr barədə məlumat verən sədr xaricdə yaşayan azərbaycanlıların yerli cəmiyyətlərə inteqrasiyası məqsədilə görülən işləri nəzərə çatdırıb. Multikultural və tolerant cəmiyyətə malik Azərbaycanın uzun illər Ermənistanın təcavüzündən əziyyət çəkdiyi, Azərbaycan Ordusunun 30 illik işğala Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində son qoyduğu vurğulanıb.

Görüş qarşılıqlı hədiyyələrin təqdim olunması və xatirə fotosunun çəkilməsi ilə başa çatıb.

# DİN "Son Zəng"lə bağlı valideynlərə müraciət etdi




***Respublikamızda "Son Zəng" tədbirlərinin təhlükəsiz şəraitdə keçirilməsi üçün polis əməkdaşları tərəfindən bütün zəruri tədbirlər görüləcəkdir.***

DİN-in Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə tədbirlərin keçirildiyi təhsil müəssisələrinin yerləşdiyi ərazilərdə naryad qruplarının sayı artırılmaqla, iştirakçıların təhlükəsizliyi, məzunların avtomobillərlə hərəkəti ilə bağlı ictimai qaydaya nəzarətin gücləndirilməsi nəzərdə tutulub.

Bütün məzunları əlamətdar gün münasibətilə təbrik edir, onları ictimai davranış qaydalarına ciddi əməl etməyə çağırırıq. Valideynlərdən xahiş edirik ki, sürücülük hüququ olmayan övladlarına avtomobil verməsinlər.

Avtomobil yollarında hərəkətin təhlükəsizliyi DYP əməkdaşları tərəfindən mühafizə olunacaq, süni sıxlığın yaranmaması üçün dayanma-durma və parklanma tələblərinə əməl etməyən şəxslər barəsində tədbirlər görüləcəkdir.

# Qazi və şəhid ailələrinin bütün üzvləri mənzil növbəsinə yazıla biləcək

***"Bu günə qədər 15 mindən çox şəhid ailəsi üzvü və Qarabağ qazisi mənzillə təmin olunub. Proses demək olar ki, yekunlaşmaq üzrədir. Yaqin ki, il yarım ərzində bu kateqoriyadan olan bütün vətəndaşlarımız mənzillə təmin olunacaq".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında komitə sədri Musa Quliyev "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanuna dəyişikliyin müzakirəsi zamanı deyib.

Komitə sədri bildirib ki, müəyyən hallarda qanunda nəzərdə tutulmayan məsələlər də ortaya çıxırdı: "Bunun da qanunvericiliklə tənzimlənməsi lazım idi. Bir müddət əvvəl bizə müraciət daxil olurdu ki, Qarabağ qazisi növbədə olarkən dünyasını dəyişirdisə, onun ailə üzvləri həmin növbədən avtomatik çıxarılırdı. Ona görə də bununla bağlı boşluğu qanunvericilikdə aradan qaldırdıq. Onların ailə üzvlərinə də mənzil növbəsinə yazılmaq şamil olundu. Eyni prosesi bir neçə hallarda şəhid ailələri arasında da müşahidə etdik. Ona görə də aidiyyəti üzrə bütün məsələlər müzakirə olunub və qanunvericiliyə müvafiq düzəlişlər edilib. Əgər şəhidin həyat yoldaşı dünyasını dəyişirdisə, şəhidin övladları status yaşından keçirdisə, mənzil növbəsinə iddialı ola bilmirdilər. Bundan sonra yeni dəyişikliklə şəhidin mənzil hüququna malik ailə üzvü dünyasını dəyişərsə, şəhid ailəsi statusu olmayan ailə üzvləri də mənzil növbəsinə yazıla biləcək".

***Anar Kəlbiyev***

# "Desin hansı otelə, nə zaman getmişik?" - Məhkəmə işi

***Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə Cinayət Məcəlləsinin 181.2.3-cü maddəsi ilə təqsirləndirilən Fərahim Mirzəzadənin məhkəmə prosesinin növbəti iclası keçirilib.***

"Unikal"ın məlumatına görə, zərərçəkmiş qismində Nuray adlı xanım ifadə verərək bildirib ki, mənim anamı, bacımı səsli olaraq sosial şəbəkədə söyüb. Sonra anam bunun şəkilini sosial şəbəkə də paylaşıb ki, tanısınlar bu əxlaqsızı.

Təqsirləndirilən Fərahim Mirzəzadə isə bildirdi ki, bunun bank kartına əmioğlu dəfələrlə pul göndərib.

Nuray isə Fərahimin istintaqa verdiyi ifadəsində guya ona 3 min manat pul verdiyini qeyd etdi: "Üst-üstə 20 manat pul verib mənə. Yazıb ki, məni guya otelə aparıb. Desin hansı otelə, nə zaman getmişik?".

Fərahim Mirzəzadə isə, hətta bununla bir dəfəyə 13 saat bir yerdə olduğunu, tez-tez görüşdüyünü məhkəmə heyətinin nəzərinə çatdırdı.

Sonda zərərçəkən Nuray xanım təqsirləndiriləndən mənəvi ziyan da tələb etdi.

Məhkəmə prosesi 1 avqust tarixinə kimi təxirə salındı.

***Azər İsrafilov***

# Heydər Babayevin yeni biznes gizlinləri

## Sabiqlərin izi ilə: Azərbaycandakı holdinqi batan eks-nazir iki ölkədəki şirkətlərini də bağlamağa hazırlaşır

***"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü yazımız sabiq iqtisadi inkişaf naziri Heydər Babayev haqqındadır.***

Qeyd edək ki, 1957-ci il təvəllüdlü Babayev Heydər Aydın oğlu 1999-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsinin sədri vəzifəsində çalışıb. 2005-2008-ci illərdə iqtisadi inkişaf naziri olub.

Hələ komitə sədri olduğu illərdə sürətlə varlanmağa başlayan Babayev nazir postunu tutarkən isə artıq ölkənin əsas oliqarxlarından birinə çevrilmişdi.



Lakin işsiz qaldıqdan sonra əksər iri məmurlar kimi Heydər müəllimin də biznesi böyük ölçüdə sarsıldı. Söhbət ilk növbədə "AB Standard" şirkətlər qrupundan gedir. Bir vaxtlar Azərbaycanın ən qüdrətli holdinqlərindən sayılan bu şirkətlər qrupu 2002-ci ildə yaradılmışdı. Holdinqə fəaliyyətləri bir neçə il öncə dayandırılan "Bank Standard" QSC, "Standard Insurance" Sığorta Şirkəti ASC kimi iri biznes subyektləri daxil idi.

Adı çəkilən şirkətlər qrupunun son çöküş mərhələsi 2019-cu ilə təsadüf edir. Həmin il "AB Standard" Şirkətlər Qrupu eyni vaxtda 7 törəmə şirkətini bağladı. Bunlar "AB Trading" MMC, "AB Travel" MMC, "AB Skybell"MMC, "AB Service" MMC, "Masalt" MMC, "Avto şop" MMC və "Standart futbol klubu" MMC idi.

Vaxtilə məhz Babayevin vəzifə imtiyazlarından, əlindəki səlahiyyətlərdən istifadə (daha doğrusu, sui-istifadə!) edib qurduğu, Azərbaycanda böyük maliyyə-sənaye qruplarından biri sayılan holdinqə maliyyə, sənaye, ticarət, tikinti, turizm və digər sahələrdə fəaliyyət göstərən 11 şirkət və müəssisə daxil olduğunu nəzərə alsaq, eyni anda 7 şirkətin ləğvi "AB Standart"ın faktiki olaraq tarixin arxivinə göndərilməsindən xəbər verirdi.

"Bank Standard" ilə "Standard Insurance"nin bağlanmasından sonra akkordlar vuruldu və Heydər Babayev Azərbaycandakı biznesini, demək olar, itirdi.

Yeri gəlmişkən, müflisləşən "Bank Standard"ın ləğvinin ardından yerli KİV-də sensasiyalı məlumatlar yayılmışdı. O vaxt media yazırdı ki, bankda talanan vəsaitin məbləği 100 milyonlarla dollarla ölçülür. ""Bank Standard"ın 1 milyard manata yaxın borcu qalıb, əmlakı isə bankın Kreditorlar Komitəsinin sabiq rəhbəri Əkrəm Həsənovun dediyinə görə, cəmi 200 milyon manat civarındadır. Bu da ondan irəli gəlir ki, əksər kreditlər ya girovsuz verilib, ya da girovun məbləği bilərəkdən dəfələrlə şişirdilib" - yayılan məlumatlarda vurğulanırdı.

Əslində isə sabiq nazirin holdinqinin çöküş prosesi 2010-cu illərin ilk yarısında başlamışdı. Məsələn, 2014-cü ilin yekunlarına görə, "AB Standard" 117 min manat zərərlə üzləşmişdi.

Elə həmin ilin aprelində Heydər Babayev ilk dəfə rəsmi şəkildə bildirmişdi ki, 2002-ci ildən fəaliyyət göstərən "AB Standard" QSC-nin 100% səhminin sahibidir. Əvvəlki maliyyə hesabatlarında isə qeyd olunurdu ki, "AB Standard" QSC-nin 50% səhminin sahibi Babayevlər ailəsinin üzvü Aliyə Qazıyevadır. Digər 50 faiz payın sahibi isə açıqlanmırdı.

Onu da deyək ki, hazırda Heydər Babayev vaxtının çox hissəsini xaricdə keçirir. Son məlumatlara görə, onun Rusiya da daxil olmaqla bir neçə ölkədə (İngiltərə, Gürcüstan, Qazaxstan, Türkiyə, ABŞ və Ukraynada)biznesi var. Lakin Babayevin Gürcüstan və Ukraynadakı biznesindən əl çəkməyə hazırlaşdığı da deyilir. Xüsusilə Ukrayna ilə bağlı qərarının arxasında bu ölkədə müharibənin uzanması və nə vaxt bitəcəyinin də proqnozlaşdırılmaması dayanır.

İddialara görə, əvvəlki illərlə müqayisədə son vaxtlar Azərbaycana daha tez-tez gələn eks-nazir Bakıdakı bağ evində dincəlməyə üstünlük verir. Bütün diqqətini xaricdəki biznesinin idarəçiliyinə yönəldən Babayevin Bakının Mərdəkan qəsəbəsində böyük bağ evi var. Həmin bağ evində bir çox ekzotik heyvanlarla yanaşı, uzun illərdir quş saxlatdırdığı bildirilir. Hətta illər öncə sabiq nazirin bağındakı həmin quşların xeyli hissəsinin oğurlandığına dair məlumat yayılmışdı.

Yeri gəlmişkən, sabiq iqtisadi inkişaf nazirinin sonuncu, hər kəsi təəccübləndirən videosu da quşlarla bağlı olmuşdu. Ötən ilin sentyabrında yayılan videodan keçmiş nazirin quş saxlamaqla ciddi məşğul olduğu dəqiqləşirdi. Onun danışıqları əvvəlcə ciddi hadisələri təhlil etdiyinə dair təəssürat yaratsa da, sonradan aydınlaşırdı ki, keçmiş nazir quş saxlamağın qaydalarından bəhs edir.

Onu da deyək ki, bir neçə il öncə Babayevin 50 milyon manatlıq nəhəng villasının fotoları da ortaya çıxmışdı. Dübəndi qəsəbəsində yerləşən həmin dəbdəbəli malikanəni yerli sakinlərin saray adlandırdığı da deyilirdi. Bildirilirdi ki, qəsri xatıradan mülk 4 hektarlıq ərazidə inşa edilib...

***Sənan Mirzə***

# Azərbaycanın gizli milyonçuları...

## Həftənin sualı: rəsmi milyonçunun olmadığı ölkədə milyonlarla manata satılan torpaq sahələrini kimlər alır?

***Bu günlərdə Bakıda əmlak bazarında torpağın qiyməti açıqlanıb. Belə ki, iqtisadiyyat.az-ın əmlak bazarında apardığı araşdırmaya görə, paytaxtın mərkəzi hissələrində tikinti təyinatlı torpaq sahələri bahalaşıb.***

Hazırda çıxarışlı ən ucuz torpaq sahəsinə Qaradağ rayonunda, ən bahalı torpaq sahəsinə isə Səbail rayonunda rast gəlinir. Nizami rayonunda 158 sot torpaq sahəsi 10 500 000 manata təklif olunur. Bu da o deməkdir ki, bir sotun qiyməti 66 min manatdan artıqdır.

Sabunçu rayonu Bakıxanov qəsəbəsində torpağın sotu 70 min manatdan başlayır. Hazırda qəsəbənin mərkəzinə yaxın ərazidə 85 sot sahəyə malik olan ərazi 6 000 000 manata satılır.



Xətai rayonunda Babək prospektinə yaxın ərazidə bir sotu 110 min manata yaxın torpaq sahəsi satışdadır. Hazırda burada 55 sot torpaq sahəsi 6 000 000 manata satılır.

Nəsimi rayonunda da bir sotu 131 min manata yaxın torpaq satışa çıxarılıb. Burada ümumi sahəsi 65 sot olan mülkiyyət 8 500 000 manata təklif olunur. Eləcə də bu rayonda hazırda satışda olan 230 sot torpaq sahəsi var ki, 30 000 000 manat qarşılığında öz alıcısını gözləyir.

Yasamal rayonunda isə torpaq sahəsinin sotu 158 min manata yaxındır. Hazırda Şəfayət Mehdiyev küçəsində satışa çıxarılan və ümumi sahəsi 38 sot olan mülkiyyət 6 000 000 manata təklif olunur.

Bakıda ən bahalı torpaq sahələrinin satıldığı rayonlara isə Səbail və Nərimanov liderlik edir.

Keçmiş Cavanşir körpüsünün yaxınlığında satışda olan torpaq sahəsinin bir sotunun qiyməti 300 min manat təşkil edir. Hazırda burada Y.Vəzirov küçəsində ümumi sahəsi 40 sot olan torpaq sahəsi 12 000 000 manata satılır.

Nərimanov rayonunda isə satışda olan 30 sot torpaq sahəsi 10 000 000 manata təklif olunur. Bunun da bir sotunun qiyməti 333 min manatdan artıqdır.

Səbail rayonunda satılan torpaq sahəsi isə daha fantastik qiymətə təklif olunur. Burada torpağın bir sotunun qiyməti 450 000 manatdır. Hazırda Badamdarda 16 sot torpaq sahəsi 7 200 000 manata satılır.

Ən maraqlısı isə milyonlarla manatlıq bu torpaqları kimin aldığıdır. Axı Azərbaycanda rəsmi milyonçu yoxdur! Hərçənd, ölkəmizdə sərvətinin ucu-bucağı olmayan iri məmurların varlığından xəbərdarıq. Elə imkanlı iş adamları da kifayət qədərdir. Lakin onların heç biri rəsmi milyonçu statusu daşımırlar. Rəsmi milyonçu yoxdursa, bir neçə sot torpağa 7 milyon, 10 milyon, 12 milyon manat pulu kimlər saya bilər?!

İki il öncə index.az iqtisadiyyat, maliyyə və biznes portalı bəzi şəxslərin səhmdar (nizamnamə) kapitalındakı payını əsas götürərək milyonçu siyahısı hazırlamışdı. Araşdırmalar göstərmişdi ki, "Premium Bank"ın sahibi Zərifə Həmzəyeva ölkənin ən zəngin səhmdarıdır. O, adıçəkilən bankın səhmdar kapitalına 130.6 milyon manat yatırıb. 2020-ci ildə isə "Premium Bank" ona əlavə olaraq 3.3 milyon manat qazandırıb.

Lakin nə Z.Həmzəyeva, nə də bank sektorunda böyük kapital, iri pay sahibi olanlar belə rəsmi milyonçu statusu daşımırlar. Əlbəttə, nonsensdir, absurddur. Lakin eyni zamanda reallıqdır.

Elan saytlarına baxırsan - Bakı və ətrafında qiyməti 2-3 milyon manatdan başlayan saysız-hesabsız villanın satışa çıxarıldığını görürsən.

Aydın olmur ki, ölkədə bir nəfər belə rəsmi milyonçu yoxdursa, bu milyonluq villaların sahibləri kimdir, onların müştərilərində o qədər pul hardandır?!

Bir dəfə iqtisadçı ekspert Natiq Cəfərli mediaya açıqlamasında haqlı olaraq demişdi ki, bəlkə də, Cənubi Qafqazda ən çox qeyri-rəsmi milyonçular bizdədir, lakin bir nəfər də rəsmi milyonçu yoxdur. Haqlı fikirdir.

Qeyd edək ki, vergi ödəyicilərinin əldə etdikləri gəlirlər və ödədiyi vergiləri barədə məlumatlar Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 30.2-ci maddəsinə əsasən, vergi sirri və şəxsi həyata dair məlumat hesab olunur: "Həmin Məcəllənin 30.6-cı maddəsində göstərilən hallar istisna olmaqla, bu məlumatların digər şəxslərə verilməsi qanunvericilikdə nəzərdə tutulmayıb".

Halbuki, əksər ölkələrdə yüksək vergi ödəyənlərin adları başqalarını da təşviq etmək üçün açıqlanır. Bəzi ölkələrdə, məsələn, Türkiyədə isə hətta ən çox vergi ödəyən fiziki şəxslərin dövlət tərəfindən mükafatlandırılması ənənəsi var.

Bizdə isə nə iş adamları, nə də məmurlar gəlir deklarasiyasını açıqlamağa həvəsli olmurlar.

Səbəbini təxmin etmək çətin deyil: ən yaxşı halda 1500-2000 manat maaş alan iri məmur 200-300 min manatlıq "inomarkalarda" şütüyür, bir neçə milyon manatlıq villada yaşayır, Bakıda və ölkənin turistik məkanlarında mülk, mənzil sahibi olursa, 5-10 manatlıq nizamnamə kapitalına malik şirkətlər qurmuş hər hansı iş adamı fantastik məbləğlərlə tenderlər qazanırsa, niyə gəlir deklarasiyası haqqında qanunun qəbulunda və işləməsində maraqlı olsunlar ki?!

**Toğrul Əliyev**

# Ombudsmandan Fransa ilə bağlı çağırış



***Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva beynəlxalq təşkilatları Fransa hökumətinin media nümayəndəsi ilə bağlı qərəzli hərəkətini pisləməyə və məsələ ilə bağlı zəruri araşdırmalar aparmağa çağırıb.***

"Unikal"ın məlumatına görə, Səbinə Əliyeva xatırladıb ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi tərəfindən Almaniyanın Bonn şəhərində keçirilən tədbirdə iştirak etmək üçün həmin ölkəyə səfər edən azərbaycanlı jurnalist 11 iyun tarixində Köln/Bonn Hava Limanında saxlanılıb və ona Fransa tərəfindən Şengen ərazisinə girişinin bloklanması barədə məlumat verilib.

Ombudsman bildirib ki, azərbaycanlı jurnalistə qarşı bu cür pis rəftar beynəlxalq hüququn norma və prinsiplərini, xüsusilə də söz, media azadlığı hüququnu, informasiya əldə etmək hüququnu kobud şəkildə pozur, eyni zamanda, jurnalistlərin sərbəst fəaliyyətinə məhdudiyyətin tətbiq olunmasına rəvac verir.

"Qeyd olunmalıdır ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsasən, hər bir şəxs əqidə azadlığı və onu sərbəst ifadə etmək azadlığı hüququna, maneəsiz olaraq öz əqidəsində qalmaq azadlığı və istənilən vasitələrlə və dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyalar axtarmaq, almaq və yaymaq azadlığına malikdir. Eyni zamanda, Fransa iştirakçısı olduğu "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın, Avropa İnsan Hüquqları Konvensiyasının müddəalarına da zidd hərəkət edib" - deyə, insan hüquqları üzrə müvəkkil vurğulayıb.

S. Əliyeva xüsusilə qeyd edib ki, bu il Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyi nəzərə alınmaqla, məhz iqlim dəyişikliyi mövzusuna həsr edilmiş tədbirdə Azərbaycanın media nümayəndəsinin iştirakına bu şəkildə maneə törədilməsi yolverilməzdir:

"Fransanın siyasi münasibətlər, habelə əsassız qərəzli yanaşmalar səbəbindən jurnalistin peşə fəaliyyətini yerinə yetirməsinə əngəl törətməsi, habelə hərəkət azadlığını məhdudlaşdırmağa yönəlmiş bu cür addım atması aidiyyəti beynəlxalq təşkilatlar tərəfindən pislənilməli və məsələ ilə bağlı zəruri araşdırmalar aparılmalıdır".

# Muzdlu işçilərin sayı artırılmalıdır - Deputat

***Milli Məclisdə muzdlu işçilərin sayının artırılması məsələsi qaldırılıb.***

"Unikal" xəbər verir ki, bu barədə deputat Ziyad Səmədzadə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında çıxış edib.

"Mən bununla bağlı bir neçə ölkənin nümunəsini araşdırmışam. Azərbaycanda muzdlu işçilərin sayı azdır. Ölkədə muzdlu işçilərin sayının artırılması barədə düşünmək lazımdır",-deyə o bildirib.

# Bakıda müəllim işləmək üçün 4 min manat rüşvət verdi

***Bakıda məktəblərin birində müəllim kimi işə düzəlmək istəyən şəxs dələduzluğa məruz qalıb.***

"Unikal"ın əldə etdiyi məlumata görə, İ.Süleymanov (ad və soyadlar şərtidir) "Gənclik Mall"da tanışı A.Əliyevlə görüşüb.

Ona Bakıda yerləşən orta məktəblərdən birində müəllim kimi işə düzəlmək istədiyini bildirib. A.Ə. onu müəllim kimi işə düzəldəcəyi barədə vəd verib və 4 min manat pul alıb, amma vədini yerinə yetirməyib.

Məsələ ilə bağlı polisə müraciət edilib və Cinayət Məcəlləsinin 178.1-ci (dələduzluq) maddəsi ilə cinayət işi başlanılıb.

Məhkəmə istintaqı zamanı tərəflər barışıb və ziyan tam ödənilib. Buna görə də, dələduzluq etməkdə təqsirləndirilən A.Ə. Nərimanov Rayon Məhkəməsinin qərarı ilə cinayət məsuliyyətindən azad edilib.

**Murad İbrahimli**

19_27 IYUl-QARA.qxd 6/13/2024 9:18 PM Page 11



# AZAL "CANSO GreenATM" ekoloji akkreditasiya proqramına qoşulacaq




***"Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsi (AZANS) aviasiya sahəsində ekoloji məsuliyyətin artırılmasına yönəldilmiş nüfuzlu "CANSO GreenATM" akkreditasiya proqramının üzvü olmaq niyyətini nümayiş etdirən Anlaşma Memorandumu imzalayıb. AZANS dayanıqlılığa sadiqliyini göstərmək üçün proqram çərçivəsində akkreditasiyadan keçəcək.***

Bu barədə "Unikal"a "Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətindən məlumat verilib. "GreenATM" proqramına qoşulmaq üçün sənədi AZAL-ın prezidenti Samir Rzayev və CANSO-nun baş direktoru Saymon Hokkard imzalayıblar.

Bu mühüm addım iyunun 11-dən 13-nə kimi Bakıda keçirilən Ümumdünya Aeronaviqasiya Sammiti 2024 və CANSO-nun 28-ci İllik Ümumi İclası çərçivəsində atılıb.

"CANSO GreenATM" proqramı aeronaviqasiya xidmətləri təchizatçılarına ekologiya ilə bağlı səylərinin müstəqil beynəlxalq akkreditasiyasını təqdim edir. Təchizatçıların fəaliyyəti onların ətraf mühitə təsiri və tullantıların azaldılması ilə bağlı təşəbbüsləri əsasında qiymətləndirilir. Akkreditasiya prosesi hava gəmilərinin yerdə, aerodrom zonasında və uçuş marşrutunda idarə olunmasını, eləcə də infrastrukturu əhatə edir. Qiymətləndirmə ətraf mühitin mühafizəsinə yönəlmiş tədbirlərin effektivliyini təsdiq edən proqramın beş səviyyəsi üzrə aparılır.

"Bu proqramda iştirak aviasiyanın Azərbaycanın ətraf mühitinə təsirinin azaldılmasına təşəbbüs göstərdiyimizi əks etdirir. Akkreditasiyanın fəaliyyətimiz və daha geniş auditoriya üçün müsbət təsirlərini səbirsizliklə gözləyirik. Bu hadisənin 2024-cü ilin noyabrında Bakıda keçiriləcək COP29-dan əvvəl baş tutması bizim üçün mühüm nailiyyətdir", - deyə AZAL-ın prezidenti Samir Rzayev sənədin imzalanması mərasimində bildirib.

"GreenATM" konsepsiyasını qəbul etməklə "Azəraeronaviqasiya" HHİ dayanaqlı inkişaf məsələləri üzrə dialoqu təşviq edərək və aviasiya sahəsinin digər maraqlı tərəflərini anoloji təşəbbüsləri həyata keçirməyə həvəsləndirərək nümunə göstərməyə çalışır.

"Biz "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinə və "Azərbaycan Hava Yolları" QSC-yə "CANSO GreenATM" proqramına qoşulmaq üçün fəal yanaşmalarına görə minnətdarlığımızı bildiririk. Onların bu proqramda iştirak üçün göstərdiyi səyləri hava hərəkətinin qlobal idarə edilməsi məsələsində daha dayanıqlı gələcəyə nail olmaq yolunda vacib addımdır", - deyə Saymon Hokkard çıxışında vurğulayıb.

Dünyanın diqqəti iqlim dəyişikliyi probleminin həllinə yönəldiyi bir vaxtda AZANS-ın "GreenATM" proqramına tərəfdar çıxması aviasiya sahəsinin davamlı inkişafla bağlı qlobal məqsədlərinə çatmaqda mühüm rol oynadığını vurğulayır.

Bu təşəbbüs təkcə ətraf mühitin mühafizəsini dəstəkləmir, həm də hava hərəkətinin davamlı idarə edilməsi sahəsində gələcək birgə səylər üçün əhəmiyyətli töhfə verir.

# Avtomobili qanunsuz sürən şəxs intihara cəhd etdi



***İyunun 12-də saat 08 radələrində İmişli rayonunda 2-ci Qarabağ müharibəsi iştirakçısı, 1992-ci il təvəllüdlü Həsənov Allahşükür Vaqif oğlu 99-MP-301 dövlət qeydiyyat nişanlı "VAZ-2107" markalı avtomobili etibarnamə olmadan və nəqliyyat vasitəsinin konstruksiyasında dəyişiklik etdiyi üçün DYP əməkdaşları tərəfindən saxlanılıb.***

"Unikal"ın məlumatına görə, rayon ərazisində avtomobillə təhlükəli manevrlər edən sürücü özünü müharibə iştirakçısı kimi təqdim etməklə, avtomobili istədiyi kimi idarə edəcəyini əsas gətirərək qanunsuz hərəkətlərini davam etdirib. İdarəetmə hüququ olmadan idarə edilən avtomobil mühafizə olunan duracağa yerləşdirilib. Sürücü barəsində toplanan materiallar baxılması üçün aidiyyəti üzrə məhkəməyə göndərilib. Bu gün səhər saatlarında A.Həsənov duracağa gələrək qanunsuz tələblər irəli sürməklə üzərinə yandırıcı maddə tökərək intihara cəhd edib. Cəhdin qarşısı ətrafda olan şəxslər tərəfindən alınaraq o xəstəxanaya yerləşdirilib.

Araşdırma aparılır. Məlumatı DİN-in Mətbuat Xidmətindən təsdiqləyiblər.

# Beyləqanın "vurulan" icra başçısı ilə bağlı müəmma

## Asif Ağayev niyə vəzifəsindən azad edilib? - Ortada bir sıra ittihamlar var

***Son iki həftədə iki rayonun icra başçısı vəzifədən çıxarıldı. May ayının 31-də Prezident İlham Əliyevin imzaladığı sərəncamla Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Balaşərif oğlu Alxasov vəzifəsindən azad edilib.İyunun 6-da isə Asif Əzizağa oğlu Ağayev Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən çıxarılıb. Prezident İlham Əliyev bununla bağlı müvafiq sərəncam imzalayıb.***

Şair Alxasov haqqında mediada yayılan məlumatda bildirilirdi ki, o, Qusarda meşə ərazisini qanunsuz olaraq ayrı-ayrı şəxslərə satıb.



Asif Ağayevin isə hansı səbəbdən işdən çıxarıldığı barədə hələlik dəqiq məlumat yoxdur.Bircə o bəllidir ki, son vaxtlar sabiq başçının ünvanına sərt tənqidlər səslənirdi. Məsələn, bir müddət əvvəl iqtisadçı Akif Nəsirli yazıb: "Bilən yoxdur ki, Beyləqan Rayon İcra hakimiyyətinin başçısı Asif Ağayev nə işlə məşğuldur, rayonda nəyi idarə edir?! Bildiyimiz odur ki, bu adam başçı təyin ediləndən bəri büdcədən ayrılan və rayonda yığılan pulları silməklə və müxtəlif bəhanələrlə sahibkarlardan pul yığmaqla məşğuldur. Rayonda nəyi satmaq mümkündürsə, artıq hamısı satılıb. Hazırda Beyləqanda müxtəlif qurğuların mühafizə zolaqlarına aid olan torpaqları da icra başçısı aşkar satır.

Nə deyim, nədən danışım sizə, rayon əhalisinin qaçmağından, rayondan hər tərəfə böyük köç karvanı gedir. İşsiz, əlacsız qalan əhali Bakıya, iş, çörək qazanmaq mümkün olan digər yerlərə köçür. Asif Ağayev bir də görəcək ki, lələ köçüb, yurdu qalıb - rayonda onunla aparat işçilərindən başqa, heç kim qalmayıb".

Bundan başqa, internet üzərindən aparılan kiçik bir axtarış kifayət edir ki, A.Ağayev başda olmaqla Beyləqanın yerli məmurlarının fəaliyyətindən, daha dəqiq desək, fəaliyyətsizliyindən saysız-hesabsız şikayətlə qarşılaşasan. Məsələn, İmamverdili və Vətəgə kəndlərinin sakinləri Beyləqan RİH başçısı Asif Ağayevin rayonda çalışdığı son beş il ərzində 5 dəfə kənd əhalisi ilə görüşə gəldiyi və kənd sakinlərinə kənd yolunun tezliklə təmir olunacağına 5 dəfə söz verdiyini qeyd ediblər. Onlar bildiriblər ki, İmamverdili və Vətəgə kəndlərinin yolu cəmi 5-6 km-dir. Kəndlərdə nəinki avtomobillərin, heç piyadaların, məktəblilərin məktəbə getməsi belə mümkün deyil, kəndlərin yolu keçilməz bataqlığı xatırladır (paralel.az).

Beyləqandan gələn şikayətlərdə rayon mərkəzindəki natəmizlikdən kommunal sahədə problemlərə, işsizlikdən tutmuş əkinə yararlı torpaqların, örüş sahələrinin ayrı-ayrı vəzifəli şəxslər tərəfindən özününküləşdirilməsinə, Qarabağ qazilərinə və şəhid ailələri üzvlərinə laqeyd münasibətdən tutmuş vətəndaş müraciətlərinə reaksiyasızlığa dair çox sayda narazılıq görmək mümkündür.

Böyük ehtimalla Beyləqanın sabiq icra başçısının işdən azad edilməsinə də bütün bunlar, rayonda onun fəaliyyətindən ümumi narazılıq əhval-ruhiyyəsi həlledici rol oynayıb.

Onu da deyək ki, A.Ağayevdən əvvəl adı çəkilən rayona Vaqif Abdullayev rəhbərlik edib. 2012-2018-ci illərdə bu vəzifəni tutan Abdullayevin zamanında Beyləqanda rüşvət və korrupsiyanın tüğyan etməsindən, sahibkarların incidilməsindən, vətəndaşların problemlərinə dırnaqarası münasibətəcən müxtəlif mövzulu iddia və ittihamların ardı-arası kəsilməyib. Rayonun adı Prezident Administrasiyasına ən çox şikayətlərin daxil olduğu rayonlar siyahısına düşüb. Eyni proses V.Abdullayevin xələfinin zamanında da davam edirdi.

Maraq üçün onu da deyək ki, Asif Ağayevin vəzifədən azad edilməsi ilə Azərbaycanda icra başçısı olmayan şəhər və rayonların sayı 5-ə çatıb. Bu rayonlardan biri Daşkəsəndir. Belə ki, rayona 12 il müddətdən çox rəhbərlik etmiş Əhəd Abıyev 17 iyul 2023-cü ildə vəzifəsindən azad edilib. Onun yerinə təyinat olmayıb.

Həmçinin, Culfa rayonunun icra başçısı Siyam Çərkəz oğlu Hacıyev 31 avqust 2023-cü il tarixində işdən çıxarılıb və onun da yerinə təyinat aparılmayıb.

17 noyabr 2023-cü il tarixində isə Prezident İlham Əliyev Mirsənani Seyidovu Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edib. Şəhər rəhbərinin yerinə hələ ki, təyinat olmayıb.

Mayın 31-də Şair Alxasovun vəzifəsindən kənarlaşdırılmasından sonra Qusar rayonuna da icra başçısı təyin edilməyib.

Və sonda xatırladaq ki, Beyləqana 6 il rəhbərlik etmiş Asif Ağayev daha əvvəl - 2013-2018-ci illərdə Şamaxının icra başçısı postunu tutub. Həmin vaxt da onun fəaliyyəti ilə bağlı Şamaxıdan vətəndaş şikayətləri və korrupsiya iddiaları media səhifələrini "bəzəyirdi"...

***Toğrul Əliyev***

19_27 IYUl-QARA.qxd 6/13/2024 9:18 PM Page 12



## 5.3.12. azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Bölgələrdə qadın sahibkarların sayı durmadan artır

### Səkinə Babayeva artıq tekstil, kosmetologiya, təhsil sahəsində öz brendini yaradan qadınların olduğunu söyləyir



***Ölkə iqtisadiyyatının inkişaf prioritetləri və milli xüsusiyyətləri nəzərə alınmaqla qadın sahibkarlığının inkişafını təşviq etmək və bu sahədə zəruri tədbirlər görmək dövlətin fəaliyyət istiqamətlərindəndir. Ötən ilin rəsmi statistikasına görə, uçotda olan qadın fiziki şəxslərin sayı 298447 nəfərdir. Məlumatlara görə, sahibkar "zərif cinsin nümayəndələri"nin 40%-i kənd təsərrüfatında(110872), 19%-i ticarət(52507), 14.2%-i xidmət sahəsində fəaliyyət göstərir. Sahibkar qadınların 29,5%-i Bakıda, 10,2%-i Lənkəran-Astara, 9,2%-i Qazax-Tovuz, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçib.***

2024-cü il yanvarın 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 1 milyon 321 min nəfəri keçib. Fərdi sahibkarların 77,3%-ni (1 milyon 21 min nəfəri) kişilər, 22,7%-ni (299.8 min nəfəri) isə qadınlar təşkil edib. Beləcə rəqəmləri müqayisə etsək, ötən il kişi fərdi sahibkarların sayı 7,1% və ya 67.9 mi nəfər, qadın fərdi sahibkarların sayı isə 11.5% və ya 31 min nəfər artıb.

Azərbaycanda qadın fərdi sahibkarların sayının 300 minə çatması sevindirici statistikadır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Bakıda "Azərbaycanın 4-cü Könüllü Milli Hesabatına dair maraqlı tərəflərlə məsləhətləşmələr, Qadınların iqtisadi hüquq və imkanlarının genişləndirilməsi və 5-ci DİM üzrə irəliləyiş" mövzusunda keçirilən 4-cü Dayanıqlı İnkişaf Məqsədləri (DİM) Dialoqunda çıxışı zamanı deyib ki, Azərbaycanda 2012-ci ildən etibarən qadın sahibkarların sayında 4 dəfəyədək artım müşahidə olunur.

Bu ilin aprelin 1-nə olan məlumata görə, Azərbaycanda informasiya və rabitə (İKT) sektorunda fəaliyyət göstərən fərdi sahibkarların sayı 14,1 min nəfər təşkil edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu, bir il əvvəlki göstəricidən 919 nəfər və ya 7 % çoxdur.

Hesabat dövründə kişi sahibkarların sayı 6 % artaraq 11 min 126 nəfərə, qadın sahibkarların sayı isə 11 % artaraq 2 min 973 nəfər olub.

Xatırladaq ki, bu ilin əvvəlinə Azərbaycanda İKT sektorunda fəaliyyət göstərən fərdi sahibkarların sayı 13 919 nəfər olub ki, bunun da 2 min 909-nu qadın sahibkarlar təşkil edib.

Statistik rəqəmlər göstərir ki, Azərbaycanda sahibkarlığın inkişafı sahəsində həyata keçirilən genişmiqyaslı tədbirlər, qadınların iqtisadi resurslara əlçatanlığının daha da gücləndirilməsi bu sahədə gender göstəricilərinin dəyişməsinə, şəxsi biznesini qurmağa maraq göstərən və bunu reallaşdıran qadınların sayının artmasına səbəb olub. Görülən bu tədbirlərin nəticəsində son illər ərzində ölkədəki qadın sahibkarların sayı dəfələrlə artaraq 250 231 nəfərə çatıb ki, onların da 30,5 faizi Bakının payına düşür. Sahibkar qadınların daha çox çalışdığı ikinci bölgə Lənkəran-Astara iqtisadi rayonudur. Bu iqtisadi rayonda sahibkar qadınların 10,1 faizi, Qazax-Tovuz iqtisadi rayonunda 8,8 faizi, Gəncə-Daşkəsən iqtisadi rayonunda isə 7,4 faizi fəaliyyət göstərir.

Qadın sahibkarlığının inkişafının ölkənin iqtisadi siyasətində əsas prioritetlərdən biri olduğunu söyləyən Azərbaycan Qadın Sahibkarları Assosiasiyasının (AQSA) sədri Səkinə Babayeva bildirir ki, son illər Azərbaycanda qadın sahibkarların sayında ciddi artımın olması sevindiricidir. O, hazırda Assosiasiyanın üzvülərinin də sayının artdığını söyləyib. Bildirib ki, hazırda Assosiasiyanın qadın üzvülərinin 2400-nü regionlar, 700 nəfəri isə Bakı və Bakıətrafında sahibkarlıq fəliyyəti ilə məşğul olan qadınlar təşkil edir.

Həmsöhbətimiz bildirir ki, qadınlar əsasən kənd təsərrüfatı, səhiyyə, təlim-tədris mərkəzlərinin yaradılması sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar. Onun sözlərinə görə, son illər ketrinq sahəsində də fəaliyyət göstərən qadınların sayı artmaqdadır.

"Artıq qadın sahibkarlar arasında tekstil sahəsində kosmetologiya, eləcə də təhsil sahəsində öz brendlərini yaradanlar var. Bu, çox sevindirici amildir" deyə, Səkinə Babayeva bildirib.

S. Babayeva son illər turizm sahəsinə də qadın sahibkarların maraq göstərdiyini vurğulayıb.

S.Babayeva qeyd edir ki, qadınların ən çox üstünlük verdikləri sahə kənd təsərrüfatı məhsullarının istehsalının inkişafıdır. Çünki bu sahə evdə məşğulluğun təmin edilməsinə daha çox dəstək verir. Bir çox hallarda isə evdə məşğulluq fəaliyyəti inkişaf edərək sənaye istiqamətləri üzrə şaxələnir ki, bunun nəticəsində kiçik sənaye daha da genişlənir. "Evdə məşğulluğun digər bir istiqaməti yaradıcı sənaye - əl işlərinin hazırlanması, yeni yaradıcılıq məhsullarının ortaya qoyulmasıdır. Bu sahə ilə məşğul olan qadınlar öz fəaliyyət sahələrini genişləndirərək onları kiçik emalatxanalar səviyyəsinə çatdırmağa çalışırlar".

O, dövlətin qadın sahibkarlara öz biznesini yaratmaq üçün avadanlıqlar verməsini də müsbət hal olduğunu söyləyib.

AQSA sədri deyir ki, bu sahədə inkişafın olması ilə yanaşı problemlər də var. Onun sözlərinə görə, qadın sahibkarlığın inkişafı üçün lobbiçiliyin olmaması, bu sahədə düzgün zəncirin qurulmaması, eləcə də yaradılan yeni biznes assosiasiyalarının sayının artması, keyfiyyətə önəm verilməməsi bu zəncirin qırılmasına səbəb olur.

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

## Fizika-riyaziyyat təmayüllü liseyə qəbul imtahanının vaxtı açıqlandı

***25 iyun 2024-cü il tarixində saat 10:00-da Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) nəzdində Fizika-riyaziyyat təmayüllü liseyə qəbul imtahanı keçiriləcək.***

"Unikal" xəbər verir ki, imtahanlarda ümumtəhsil məktəbləri, lisey və gimnaziyalarda təhsil alan VI, VII, VIII və IX sinif şagirdləri iştirak edəcəklər.

Qəbul imtahanı VII və VIII siniflər üçün Azərbaycan dili və riyaziyyat fənləri üzrə, IX və X siniflər üçün isə Azərbaycan dili, riyaziyyat və fizika fənlərindən keçiriləcək.

Test tapşırıqları VII sinifə qəbul üzrə Azərbaycan dili fənnindən 20, riyaziyyat fənnindən 30 sual olmaqla cəmi 50, VIII sinifə qəbul üzrə Azərbaycan dili fənnindən 25, riyaziyyat fənnindən 35 sual olmaqla cəmi 60, IX-X sinifə qəbul üzrə isə Azərbaycan dili fənnindən 20, riyaziyyat fənnindən 20, fizika fənnindən 20 sual olmaqla cəmi 60 sualdan ibarət olacaq.

Qeyd edək ki, sənəd qəbulu üçün son tarix 14 iyundur. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmək mütləqdir!

Qeydiyyat üçün 2 ədəd 3x4 fotoşəkil və şagirdin şəxsiyyət vəsiqəsinin surətini liseyə təqdim etmək lazımdır.

Ətraflı məlumat üçün aşağıdakı əlaqə vasitələri ilə əlaqə saxlaya bilərsiniz.

Tel: 994+ (012) 539 54 48
994+ (055) 551 51 63
E-Mail: lisey@azmiu.edu.az

## Goranboy rayonunda yazlıq bitkilərin əkini statistikası

***Goranboy rayonunda yaz-tarla işləri davam etdirilir, və 2024-cü ilin yanvar-may aylarında 7041,5 hektar sahədə və ya 2023-ci ilin eyni dövrü ilə müqayisədə 9,1 faiz çox yazlıq bitkilərin səpini aparılmışdır.***

Bu dövrdə 878,1 hektar sahədə dənlilər və dənli paxlalı bitkilər (ondan 550,5 hektarı dən üçün qarğıdalı), 279,8 hektar sahədə kartof, 1077,4 hektar sahədə tərəvəz, 72,6 hektar sahədə bostan bitkiləri, 2349,8 hektar sahədə dən üçün günəbaxan, 1464 hektar sahədə pambıq, 89,3 hektar sahədə şəkər çuğunduru, 5 hektar sahədə tütün, 789 hektar sahədə çoxillik otlar, 36,5 hektar sahədə birillik otlar əkilmişdir.

**Qrafik 1**




**Cədvəl 1**

Yazlıq bitkilərin əkini
2024-cü ilin yanvar-may ayları üzrə

| | 2024-cü il yanvar-may | 2023-cü il yanvar-may | 2024-cü ilin yanvar-may ayları 2023-cü ilin yanvar-may aylarına nisbətən, %-lə |
|---|---|---|---|
| Yaz əkininin əvvəlindən əkilmişdir | 7041.5 | 6455.2 | 109.1 |
| Dənlilər və dənli paxlalı bitkilər (qarğıdalısız) | 327.6 | 262.5 | 124.8 |
| buğda | 38.6 | 34.4 | 112.2 |
| vələmir (yulaf) | 25.0 | - | - |
| Qarğıdalı - cəmi | 550.5 | 417.3 | 131.9 |
| o cümlədən dən üçün qarğıdalı | 550.5 | 417.3 | 131.9 |
| Keçən ilin payızlıq əkinini də daxil etməklə cari ilin kölgəliksiz çoxillik otlar əkini – cəmi | 789.0 | 779.6 | 101.2 |
| Pambıq | 1464.0 | 1539.8 | 95.1 |
| Dən üçün günəbaxan | 2349.8 | 1970.0 | 119.3 |
| Tütün | 5.0 | 8.0 | 62.5 |
| Kartof | 279.8 | 265.5 | 105.4 |
| Tərəvəz (toxumluqlarsız və anacsız) | 1077.4 | 1081.1 | 99.7 |
| Bostan bitkiləri | 72.6 | 50.0 | 145.2 |
| Şəkər çuğunduru (emal üçün) | 89.3 | 45.4 | 196.7 |
| Birillik otlar | 36.5 | 36.0 | 101.4 |

*Goranboy Rayon Statistika İdarəsi*



# II və III qruplar: Bu abituriyentlər ixtisas seçimində iştirak edə bilməz

***Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən II cə III ixtisas qrupları üzrə qəbul imtahanının 1-ci cəhdi keçirilib və nəticələr elan olunub.***

2-ci cəhd imtahanından sonra isə imtahan verən namizədlər üçün ən əsas mərhələ, yəni, ixtisas seçimi başlayacaq.

Nəticələri elan olunan II və III ixtisas qrupunu seçən abituriyentləri maraqlandıran suallardan biri də ixtisas seçiminə buraxılmaq üçün hansı şərtləri ödəməli olduqları barədədir.

Məlumata görə II və III qruplar üzrə ixtisas seçimi aşağıdakı şərtlərə əsasən aparılır.

II ixtisas qrupu

Müsabiqəyə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır.

Müəyyən ixtisaslar üzrə tətbiq edilən tələblər qismən fərqlidir: - Dövlət ali təhsil müəssisələrinin ("ADA" Universiteti və Bakı Ali Neft Məktəbi istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;

Aşağıda qeyd olunan ixtisaslar üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılır:

- Marketinq;
- Biznesin idarə edilməsi;
- Turizm bələdçiliyi;
- Turizm işinin təşkili.

III ixtisas qrupu

Müsabiqəyə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır.

Müəyyən ixtisaslar üzrə tətbiq edilən tələblər qismən fərqlidir: - Dövlət ali təhsil müəssisələrinin ("ADA" Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;

- Dövlət ali təhsil müəssisələrinin ("ADA" Universiteti istisna olmaqla) "Tərcümə (dillər üzrə)", "Filologiya (xarici dil və ədəbiyyatı üzrə)" və "Xarici dil müəllimliyi (dillər üzrə)" ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) xarici dil fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;

-Dövlət ali təhsil müəssisələrinin ("ADA" Universiteti istisna olmaqla) "Beynəlxalq münasibətlər" ixtisasının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) xarici dil fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;

-Aşağıda qeyd olunan ixtisaslar üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılır:

- Muzey, arxiv işi və abidələrin qorunması;
- Sosial iş;
- Regionşünaslıq (regionlar üzrə).

# 2024-ün yanvar-mart aylarında Ağsuda iqtisadi və sosial inkişafının makroiqtisadi göstəricilər belə olub

***Ağsu Rayon Statistika İdarəsindən verilən məlumata görə, 2024-cü ilin yanvar-mart aylarında Ağsu rayonu üzrə iqtisadiyyatın əsas sahələrində ümumi məhsul buraxılışı 111023,1 min manat təşkil etmiş və əvvəlki ilin müvafiq dörünə nisbətən 8,0 faiz azalıb.***

Məhsul buraxılışının həcmi 2023-cü ilin yanvar-mart ayları ilə müqayisədə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 1,5 faiz, nəqliyyat və anbar təsərrüfatı sahəsində 6,0 faiz, informasiya və rabitə xidmətləri sahəsində 35,3 faiz artmış, sənaye sahəsində 33,3 faiz, tikinti sahəsində 7,6 faiz, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində 1,7 faiz azalmışdır.




Sənaye. 2024-cü ilin yanvar-mart ayları ərzində faktiki qiymətlərlə 12962,5 min manatlıq və ya 2023-cü ilin yanvar-mart ayları ilə müqayisədə sabit qiymətlərlə 33,3 faiz az sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir. İstehsalın ümumi həcmində emal sektoru 89,9 faiz, mədənçıxarma sənayesi 2,2 faiz, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektoru 7,2 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektoru 0,7 faiz təşkil etmişdir.

Emal sektorunda 11657,7 min manatlıq məhsul istehsal edilmiş, 2023-cü ilin yanvar-mart aylarına nisbətən 39,4 faiz azalmışdır.

Emal sektorunda 2023-cü ilin yanvar-mart aylarına nisbətən qida məhsullarının istehsalı 48,0 faiz, içki istehsalı 18,0 faiz, mebellərin istehsalı 24,7 faiz azalmış, poliqrafiya məhsullarının istehsalı 14,8 faiz artmışdır.

Elektrik enerjisi, qaz, buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsinin müəssisələri tərəfindən 937,7 min manatlıq məhsul buraxılmış və xidmətlər göstərilmiş və 2023-cü ilin yanvar-mart ayları ilə müqayisədə sabit qiymətlərlə 79,7 faiz artmışdır.

Mədənçıxarma sənayesində 279,6 min manatlıq məhsul istehsal olunmuşdur.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsalın real həcmi 2,8 faiz artaraq 87,5 min manat təşkil etmişdir.

Kənd təsərrüfatı. 2024-cü ilin məhsulu üçün 14662,0 hektar sahədə payızlıq buğda və 19884,0 hektar sahədə payızlıq arpa səpini aparılmışdır ki, bundan da 12479,0 hektar buğda və 18285,0 hektar arpa sahəsi əhali təsərrüfatlarına aid olmuşdur.

2024-cü ilin yanvar-mart aylarında heyvandarlıq bölməsində diri çəkidə 1278,6 ton ət, 7227,0 ton süd, 3 milyon 356 min ədəd yumurta istehsal edilmişdir.

2023-cü ilin yanvar-mart aylarına nisbətən ət istehsalı 8,5 ton və ya 0,7 faiz az, süd istehsalı 162,3 ton və ya 2,3 faiz, yumurta istehsalı 46,0 min ədəd və ya 1,4 faiz çox olmuşdur.

2024-cü ilin aprel ayının 1-nə 38625 baş iribuynuzlu mal-qara (ondan 18903 baş inək və camış), 133204 baş qoyun və keçi mövcud olmuşdur. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə iribuynuzlu mal-qaranın sayı 84 baş (0,2 faiz) çox olmuş, o cümlədən inək və camışların sayı 118 baş (0,6 faiz) çox olmuş, qoyun və keçilərin sayı isə 1698 baş (1,3 faiz) az olmuşdur.

Tikinti. 2024-cü ilin yanvar-mart aylarında rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 66040,0 min manat və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 7,2 faiz az vəsait yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 65431,4 min manatı və ya 99,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin 99,1 faizini və ya 65462,1 min manatını dövlət sektoru, 0,9 faizini və ya 577,9 min manatını isə qeyri-dövlət sektoru təşkil etmişdir.

Nəqliyyat. 2024-cü ilin yanvar-mart aylarında avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 2160,0 min nəfər sərnişin daşınmış, 2023-cü ilin yanvar mart aylarına nisbətən 6,8 faiz çox olmuşdur.

2024-cü ilin yanvar-mart aylarında avtomobil nəqliyyatı ilə 110,0 min ton yük daşınmış və 2023-cü ilin yanvar mart aylarına nisbətən 6,8 faiz çox olmuşdur.

İnformasiya və rabitə. Bu sahədə fəaliyyət göstərən müəssisələr tərəfindən 2024-cü ilin yanvar-mart aylarında 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə göstərilmiş xidmətlərin dəyəri 35,3 faiz artaraq 242,8 min manat təşkil etmişdir.

Əhaliyə göstərilmiş xidmətlərin dəyəri 256,3 min manat (ƏDV və aksizlər daxil olmaqla) olmaqla 2023-ci ilin müvafiq dövrünə nisbətən 40,7 faiz artmışdır.

Xidmətlərin ümumi həcmində dövlət sektorunun xüsusi çəkisi 99,6 faiz təşkil etmişdir.

Pərakəndə ticarət. 2024-cü ilin yanvar-mart aylarında pərakəndə ticarət şəbəkələrində istehlakçılara 49658,6 min manatlıq məhsul satılmış, 25417,7 min manatını (51,2 faiz) ərzaq məhsulları, içkilər və tütün məmulatları, 24240,9 min manatını (48,8 faiz) qeyri-ərzaq malları təşkil etmişdir.

2023-cü ilin yanvar-mart aylarına nisbətən pərakəndə ticarət dövriyyəsi müqayisəli qiymətlərlə 1,7 faiz azalmış, o cümlədən, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 26,0 faiz azalmış, qeyri-ərzaq malları üzrə isə 50,9 faiz çoxalmışdır.

Əməkhaqqı. 2024-cü ilin yanvar-ferval aylarında rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 610,0 manat, həmçinin dövlət sektorunda 676,4 manat, qeyri-dövlət sektorunda 506,2 manat təşkil etmiş, 2023-cü ilin müvafiq dövrünə nisbətən rayon üzrə 5,5 faiz, o cümlədən, dövlət sektoru üzrə 4,6 faiz, qeyri-dövlət sektoru üzrə 7,5 faiz artmışdır.

# Şəhid övladlarının “Məzun günü” keçirilib

***“Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı, “PAŞA Həyat Sığorta” ASC-nin dəstəyi və “LIBRAFF” kitab mağazaları şəbəkəsinin tərəfdaşlığı ilə 12 iyun tarixində bu il orta məktəbi müvəffəqiyyətlə bitirərək məzun olan 40 şəhid övladı üçün “Məzun günü” tədbiri təşkil olunub.***



”Unikal” xəbər verir ki, Dövlət himninin səslənməsi və şəhidlərimizin əziz xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsi ilə başlanan tədbirin açılış nitqində çıxış edən “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova orta məktəbi müvəffəqiyyətlə başa vuran şəhid övladlarının hər birini təbrik edib və onlara gələcək həyatlarında uğurlar arzulayıb. “Həyatınızın bütün mərhələlərində atacağınız addımlar zamanı biz hər zaman sizin yanınızda olacağıq” - deyə S.Orucova qeyd edib.

“PAŞA Həyat Sığorta” ASC-nin Korporativ Kommunikasiyalar üzrə rəhbəri Vəli Məmmədov da çıxışında məzun şəhid övladlarını təbrik edib və ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda edən qəhrəman şəhidlərimizin həyat yolunun gənc nəsil üçün vətənpərvərlik nümunəsi olduğunu bildirib.

Daha sonra çıxış edən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, millət vəkili Hicran Hüseynova çıxışında şəhid övladlarının Azərbaycan xalqına və Vətənə əmanət olduqlarını söyləyib: ”Şəhid övladları bizə əmanətdir. Bu əmanətə sadiqlik hər bir vətəndaşımızın mənəvi borcudur”.

Tədbirdə iştirak edən digər millət vəkilləri Fatma Yıldırım, Ceyhun Məmmədov və Tahir Mirkişili də məzun olan şəhid övladlarına öz ürək sözlərini və təbriklərini çatdırıblar.

Təhsilin İnkişafına Dəstək Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov da çıxışında şəhid övladlarına göstərilən diqqətin hər birimiz üçün mənəvi borc olduğunu bildirib.

Daha sonra tədbir bədii hissə ilə davam edib. Azərbaycan Respublikasının Əməkdar artisti Lalə Məmmədova, tanınmış müğənni Günay İbrahimli və “Star Band” qrupu öz ifaları ilə məzun şəhid övladlarına duyğu dolu və əyləncəli anlar yaşadıblar.

Tədbirin sonunda məzun şəhid övladlarına “LIBRAFF” kitab mağazaları şəbəkəsi tərəfindən xatirə hədiyyələri təqdim olunub.




## Qusar rayonunda əhalinin sosial təminatı

***2024-cü ilin əvvəlinə Qusar rayonunda pensiyaçıların sayı 9219 nəfər olmuşdur, onlardan 1018 nəfəri - işləyən , 8201 nəfəri isə işləməyən pensiyaçılardır. Təyin olunmuş pensiyaların orta aylıq məbləği 339.81 manata bərabərdir. Cəmi pensiya alanlardan 6116 nəfər -yaşa görə, 2057nəfər - əlilliyə görə, 1046 nəfər ailə başçısını itirməyə görə pensiya alanlardır. 2023-cü ildə Qusar rayonunda 264 ailəyə (1180 nəfərə) ünvanlı dövlət sosial yardımı təyin edilmişdir. 1 nəfərə düşən ünvanlı dövlət sosial yardımının orta aylıq məbləği 118,77 manat təşkil etmişdir.***

2024-cü ilin əvvəlinə sosial müavinət təyin edilmiş şəxslərin sayı cəmi 4345 olmuşdur ki, onlardan 1773 nəfər - yaşa görə, 1523 nəfər - əlilliyə görə, 560 nəfər- ailə başçısını itirməyə görə, 313 nəfər - 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə, 176 nəfər isə digər növ sosial müavinət alan şəxslərə aiddir.

2023-cü ildə 659 nəfərə birdəfəlik sosial yardım verilmişdir. Uşağın anadan olmasına görə - 578 uşağa (müavinətin bir nəfərə düşən orta aylıq məbləği 464.12 man.), radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə müalicə üçün - 12 nəfərə (müavinətin bir nəfərə düşən orta aylıq məbləği 300.0 man.), dəfn üçün - 46 nəfərə (müavinətin bir nəfərə düşən orta aylıq məbləği 490.22 man.), penitensiar müəssisələrində cəza çəkməkdən azad edilmiş şəxslərə isə - 23 nəfərə (müavinətin bir nəfərə düşən orta aylıq məbləği 1340.87 man)

*Qusar Rayon Statistika İdarəsi*
*Vahid Hacıbabayev*
*aparıcı məsləhətçi*
*12.06.2024*

# Vətən, torpaq sevgisi...

***44 günlük haqq savaşımızda sinəsini Vətənə sipər edib şəhidlik zirvəsinə ucalan qeyrətli oğullardan biri də Arif Qeybiyevdir. Adı şərəf tariximizə yazılan bu, Vətən oğlu 1997-ci ildə Astaranın Səncərədi kəndində dünyaya göz açıb. Orta məktəbdə oxuduğu zaman idmana marağı onu 2012-ci ildə Astara Pedaqoji Kollecinin “İdman” fakültəsinə gətirib. Burada oxuduğu zaman müsbət insan keyfiyyətləri, yaxşı oxuması, idman uğurları ona böyük hörmət qazandırır.***

Arif idmanın kross qaçışında qüvvəsini çox sınayıb, həmişə də qatıldığı yarışlardan qalib ayrılıb. O, üçqat Azərbaycan çempionu, Atletika üzrə gənclər arasında Azərbaycan çempionu, yeniyetmələr arasında respublika çempionu, eləcə Olimpiya təsnifat yarışların iştirakçısı olub.

Ürəyi Vətən, torpaq eşqli Arif 2016-cı ildə ordu sıralarında müddətli həqiqi hərbi xidmətə başlayıb. Bir müddət Daxil İşlər Nazirliyinin Daxili Qoşunlarında, daha sonra Naxçıvan Muxtar Respublikasında xüsusi təyinatlıların bölüyündə Vətən qarşısında borcunu ləyaqətlə yerinə yetirib, erməni dığalardan qisas alacağı günə hazırlaşıb. Bu məqsədlə əsgərliyi başa çatsa da, həyatını hərbiyə bağlayıb. 2018-ci ilin oktyabr ayında hərbi kursa çağırılıb. Təmiz ürəkli, vicdanlı, qeyrətli, həyatının mənasını Vətənə, xalqa təmənnasız xidmətdə görən Arif tankçı kimi orduda fəaliyyət göstərib. İkinci Qarabağ müharibəsinin ilk günündə yağı düşmənin üstünə birincilər sırasında gedib və meydanda onlara qan uddurub. Torpaq uğrunda can qoyan, mərdliklə döyüşən igid Füzulidə düşmən gülləsinə tuş gəlib. Ölümündən sonra “Vətən uğrunda”, “Cəsur döyüşçü”, Füzulinin, Xocavəndin azadlığına görə medallara layiq görülüb.



Ölümsüzlüyə qovuşan qəhrəman qəlblərdə yaşamaqla gəlib 27 yaşına çatdı. Astara Pedaqoji Kollecinin rəhbərliyi və bir qrup əməkdaşı kollecin məzunu şəhid Arif İsmayıl oğlunun doğum günü münasibətilə məzarını ziyarət etdilər, önünə güllər qoydular. Kollecin direktoru, professor, şəhid atası Kamran Kazımov çıxışı zamanı dedi: ”Vətənpərvərlik - Vətəninə, dövlətinə, xalqına, millətinə olan sonsuz sevgidən yaranan bir duyğudur, məfkurədir. Doğulub boya-başa çatdığı yurduna bağlı olan, onun uğurları üçün çalışan hər kəs vətənpərvərdir. Onu sevmək, sevdirmək və qorumaq hər birimizin müqəddəs borcudur. Arif kimi oğullar Vətən yolunda canlarını qurban verdilər. Şəhidlər ölməzlər, onlar daim ürəklərdə, yaddaşlarda yaşayacaqlar. 30 ildən sonra 44 günə Böyük Zəfəri xalqımıza bəxş edən şəhidlərimizi ən səmimi, ən ülvi duyğularla yad edirik”.

Şəhid mayor Kamran Fərəcovun həyat yoldaşı Nuranə Fərəcova isə bildirdi ki, şəhid ailəsi olmaq nə qədər ağrılı, acılı olsa da, o qədər qürurvericidir.

Son zamanlar kollecdə rəhbərlik tərəfindən şəhid ailələrinə diqqət və qayğının artırılması təqdirələyiqdir.

Ziyarətçilər daha sonra kollecin digər məzunu şəhid Mirzəhəsən Əlizadənin uyuduğu müqəddəs yerə baş çəkdilər və ehtiram əlaməti olaraq məzarına güllərdən çələng hördülər.

*Zəfər Orucoğlu, Azərbaycan*
*Jurnalistlər Birliyinin üzvü*

## Ucar rayonu üzrə yazlıq bitkilərin əkini yekunlaşıb

***Ucar rayonunda fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında 01 iyun 2024-cü il tarixə 5708 hektar sahədə yazlıq bitkilərin əkini aparılmışdır.***

Bu keçən ilin müvafiq dövrü ilə müqayisədə 656 hektar və ya 13 faiz çoxdur. Əkilmiş yazlıq əkinlərin 1782 hektarını yonca, 1780 hektarını tərəvəz, 327 hektarını kartof, 1069 hektarını yazlıq dənlilər və dənli paxlalılar, 561 hektarını qarğıdalı, 189 hektarını bostan bitkiləri təşkil etmişdir. Bütün təsərrüfat kateqoriyaları üzrə yazlıq bitkilərin əkini yekunlaşmışdır.

*Ucar Rayon Statistika İdarəsinin*
*rəis müavini Şakir Qasımov*

# Siyəzən rayonunda dövlət qulluqçularının sayı haqqında statistika

***Siyəzən rayonunda 16 müəssisə və təşkilatda 21 nəfəri qadın olmaqla dövlət qulluqçularının ümumi sayı 87 nəfərdir.***

Bildiririk ki, dövlət qulluqçularının 1 nəfəri dördüncü, 2 nəfəri beşinci, 9 nəfəri altıncı, 63 nəfəri yeddinci, 12 nəfəri isə dövlət qulluğunun yardımçı vəzifələrində işləyənlərdir. Yaş qrupları üzrə dövlət qulluğunda çalışanlardan 30 yaşa qədər olanlar 11, 30-34 yaşda




olanlar 13, 35-44 yaşda olanlar 35, 45-54 yaşda olanlar 11, 55-64 yaşda olanlar 17 nəfər təşkil edir.

2023-cü ildə dövlət qulluqçularının rayon üzrə orta aylıq əməkhaqqı əvvəlki il ilə müqasiyədə 1,9 faiz artaraq 1278,2 manat, o cümlədən qadınlar üzrə 2,8 faiz artaraq 1243,1 manat olmuşdur.

*Kamil Xəlilov Siyəzən Rayon*
*Statistika İdarəsinin rəisi*

19_27 IYUl-QARA.qxd 6/13/2024 9:19 PM Page 15





## Bayden və Zelenski 10 illik təhlükəsizlik sazişi imzalayacaqlar

***ABŞ prezidentləri Co Bayden və Ukrayna prezidenti Volodimir Zelenski 10 illik təhlükəsizlik sazişi imzalamağı planlaşdırırlar.***

"Unikal" xəbər verir ki, bu barədə "The Washington Post" məlumat yayıb.

Sənəd Vaşinqtonu Kiyevə geniş spektrli hərbi yardım göstərməyə məcbur edəcək.

ABŞ-nin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan bildirib ki, keçmiş prezident Donald Tramp noyabrda keçiriləcək seçkilərdə qalib gəlsə belə, saziş gələcək ABŞ administrasiyalarını Ukraynaya dəstək vermək öhdəliyini götürmək məqsədi daşıyır.

***Ağarza Elçinoğlu***

## Rusiya DİN teleaparıcını axtarışa verdi

***Rusiya Daxili İşlər Nazirliyi teleaparıcı Tatyana Lazarevanı Axtarışa verib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya mətbuatı məlumat yayıb. Onun Cinayət Məcəlləsinin hansı maddəsi ilə axtarışa verildiyi qeyd olunmayıb.

## Türkiyədə terrorçulara qarşı əməliyyat keçirildi

***Türkiyənin 16 vilayətində Separatçı Terror Təşkilatına (BTO) qarşı keçirilən "Bozdoğan-42" əməliyyatlarında 58 şübhəli tutulub.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə daxili işlər naziri Ali Yerlikaya öz sosial media hesabında açıqlama verib.

O, verdiyi açıqlamada Adana, Antalya, Batman, Diyarbəkir, Elazığ, Qaziantep, Hakkari, İzmir, İstanbul, Karaman, Mersində Muş, Şanlıurfa, Şırnak, Tunceli və Van şəhərlərində separatçılara qarşı "Bozdoğan-42" əməliyyatı aparıldığını bildirib.

***Zərifə Nağıyeva***

## "KTMT-dən çıxmaqla bağlı Paşinyanın rəsmi bəyanatını gözləmək lazımdır" - Karasin

***Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxmaq qərarı ilə bağlı Ermənistanın baş naziri Nikol Paşinyanın rəsmi bəyanatını gözləmək lazımdır.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Federal Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin sədri Qriqori Karasin bildirib.

O, Paşinyanın dünən parlamentdə səsləndirdiyi bəyanata münasibət bildirib: "Bu cür bəyanatlar təbii ki, diqqəti cəlb edir, lakin bəzən parlamentdə emosional mübahisənin qızğın vaxtında verilir. Ona görə də biz Ermənistanın KTMT çərçivəsində tərəfdaşı olaraq yəqin ki, baş nazirin rəsmi açıqlamasını gözləməliyik, əks halda bunların hamısı havada asılıb qeyri-müəyyənlik yaradacaq ki, bu da Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı üzvü kimi Ermənistan üçün çox təəssüf doğurur".

***Ağarza Elçinoğlu***

# "Lukaşenko İrəvandan üzr istəməsə..." - Paşinyan

***Belarus prezidenti Aleksandr Lukaşenko İrəvandan üzr istəməsə Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) tərk edə bilər.***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan deyib.

Paşinyan həmçinin bildirib ki, Lukaşenko Belarusun prezidenti olduğu halda o, Belarusa səfər etməkdən imtina edir. Onun sözlərinə görə, eyni şey Ermənistanın digər rəsmi və siyasətçilərinə də aiddir: "Bu andan etibarən Ermənistanın heç bir rəsmi nümayəndəsi Belarusa səfər etməy-



əcək. KTMT rəhbərlərindən biri bəyan edir ki, o, 44 günlük müharibənin hazırlanmasında iştirak edib, Azərbaycanın qələbəsini ruhlandırıb, inanıb və arzulayıb. Bundan sonra gedib Belarus prezidenti ilə KTMT formatında oturub məsələni müzakirə edim? Ləyaqətdən, prinsiplərdən danışan siz deyilsiniz? AİI-də, KTMT-də hansısa formada buna məcbur olacağım vəziyyət var. KTMT ilə bağlı nəsə dəyişə bilərmi? Nəzəri olaraq, bəli, əgər Belarus KTMT-dən çıxmaq qərarına gəlsə və ya Belarus prezidenti Ermənistan xalqına başa düşülən və məqbul olan üzrxahlıq və izahat sözləri desə".

***Gülayə Mecid***

# "Ermənistanın KTMT-dən çıxması ABŞ-nin əlindədir" - Politoloq

***"Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxsa, Vaşinqton Şərqlə Qərb arasında qlobal münaqişə yaratmaq üçün yeni platforma əldə edəcək".***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu fikri erməni politoloq Arman Abovyan səsləndirib.

"Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) direktor müavini David Cohenin bu yaxınlarda Ermənistana səfər etdiyini xatırlamaq kifayətdir, deməli olar ki, hər həftə Avropadan müxtəlif funksionerlər Ermənistana gəlirlər", - ekspert bildirib.

Onun sözlərinə görə, ABŞ respublikada siyasi proseslərə təsir edir, Avrasiya vektorunu zəifləməyə, Rusiya və İranı geosiyasi mənzərədən sıxışdırıb çıxarmağa çalışır.

Eyni zamanda, amerikalılar KTMT-yə alternativ kimi Ermənistanla "strateji tərəfdaşlıq" təqdim edirlər və Ermənistan hakimiyyəti konsepsiyaların bu cür dəyişdirilməsi ilə razılaşır və təşkilatda iştirakını tədricən azaldır. Abovyanın fikrincə, Qərbin respublikaya təsiri o qədər göz qabağındadır ki, rəsmi İrəvan bunun əksini sübut etməyə belə risk etmir.

"Ermənistan hakimiyyəti Qərblə Şərq arasındakı münaqişəni öz evinə gətirdi, bundan kimə sərfəli olacağını deyə bilmərəm, amma təbii ki, Ermənistan Respublikası bundan uduzacaq" - deyə o, əlavə etib.

Xatırladaq ki, Ermənistanın baş



naziri Nikol Paşinyan iyunun 12-də parlamentdə çıxışı zamanı ölkəsinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxacağını bildirib, lakin dəqiq tarixi açıqlamayıb.

***Gülayə Mecid***

# "Ermənistan Qazaxın 4 kəndini tərk etməli olduğunu bilirdi" - Ceyms O`Brayen

***Ermənistan və Azərbaycanın sülh müqaviləsi üzrə razılığa gəlməsinin vaxtı çatıb.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ dövlət katibinin müavini Ceyms O'Brayen deyib. Onun fikrincə, Orta Asiyadan Aralıq dənizinə ticarət yolunun tikintisi üçün tarixi fürsət var: "Bu, o zaman baş verə bilər ki, Ermənistanla Azərbaycan arasında sülh olsun. Və bu, təkcə əsas ticarəti deyil, həm də bu marşrut boyunca yeni sənaye sahələrini açacaq. Bu, indi baş verə bilər. Bir neçə ildən sonra o qədər də vacib olmaya bilər. Bir neçə il əvvəl bu mümkün deyildi. Mən də hesab edirəm ki, indi əla vaxtdır, çünki bu marşrutda yerləşən ölkələr Rusiyanın təsirini azaltmaq istəyir"

Onun sözlərinə görə, sonuncu demarkasiya tənzimləməsi müəyyən bir mübadilə idi: "Ermənistan onları (Qazaxın 4 kəndini - red.) tərk etməli olduğunu bilirdi və Azərbaycan Ermənistanın qəbul edəcəyini bildikləri demarkasiya xəttinə, Alma-Ata Bəyannaməsinə razı oldu. Ona görə də hər bir tərəf kompromis əldə etdi. Hesab edirəm ki, bu cür yeni tələblər irəli sürmək, sonra əlavə danışıqlar aparmaq tərzinə nə vaxtsa son qoyulmalıdır. Fikrimcə, biz uğurlu sazişin təxmini konturunu artıq bilirik. İndi isə problem tərəflərin razılığa gəlməyin vaxtının çatdığını qəbul etmələridir".

***Ağarza Elçinoğlu***

# "Ermənistanda xalqı qoruya biləcək hökumət yoxdur" - Qalstanyan

***"Hökumətin iclasının vaxtı dəyişib, onu da öyrəndik ki, 45 məsələdən 44-ü barədə məlumat verilmir".***

"Unikal" Ermənistan KİV-ə istinadən xəbər verir ki, bunu "Vətən naminə" hərəkatının lideri arxiyepiskop Baqrat Qalstanyan jurnalistlərlə söhbətində deyib.

O, bunu belə izah edib: "Ölkədə xalqı qoruya biləcək nə hökumət var, nə də hakimiyyət". Hərəkat lideri bildirib ki, bu



gün saat 20:00-da İrəvanda parlament binası yaxınlığında mitinq keçiriləcək, gün ərzində müzakirələr aparılacaq.

Xatırladaq ki, ötən gün polislərlə ilə etirazçılar arasında toqquşma baş verib. Hüquq-mühafizə orqanları etirazçılara qarşı kobud güc tətbiq edib. Polis səs qumbaralardan istifadə edib, nəticədə 100-dən çox insan yaralanıb.

***Gülayə Mecid***

19_27 IYUl-QARA.qxd 6/13/2024 9:19 PM Page 16



# Messi Olimpiadadan imtina etdi



***Lionel Messi Paris-2024 Yay Olimpiya Oyunlarında Argentina millisinin heyətində olmayacaq.***

”Unikal” xəbər verir ki, bunu 36 yaşlı ulduz futbolçunun özü açıqlayıb.

Messi etiraf edib ki, yaşı ona ardıcıl 2 turnirdə iştirak etməyə imkan vermir: “Millinin baş məşqçisi Xavyer Maskerano ilə danışdım. Amerika Kubokunda mübarizə aparırıq və Olimpiada haqda düşünmək çətindir. Hər 2 yarışda iştirak etsəm, klubumdan 2-3 ay ayrı düşəcəm. Ardıcıl 2 turnirdə oynamaq yaşında da deyiləm. Bu səbəbdən də seçimimi etmişəm. Olimpiadada oynamaq və qalib olmaq mənə nəsib olub. Bu, futbol səviyyəsində gözəl təcrübə idi”.

Qeyd edək ki, Paris-2024 iyulun 26-dan avqustun 11-nə kimi keçiriləcək.

# Şəhidin doğum gününə həsr olunmuş mini futbol turniri başladı

***44 günlük haqq savaşımızda sinəsini Vətənə sipər edib şəhidlik zirvəsinə ucalan Samir Allahverdiyevin 23 yaşı tamam oldu.***



Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı, eləcə Azərişıq ASC Cənub Regional Enerji Təchizatı və Satışı İdarəsinin dəstəyi ilə Lənkəran rayonunun Ürgə kəndində şəhidin doğum gününə həsr olunmuş mini-futbol idman növü üzrə regionun açıq turnirinin açılış mərasimi keçirildi.

Dövlət himninin oxunması, qan töküb torpağı Vətən edən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılmaqla başlanan tədbirdə idarənin əməkdaşı çıxış etdi:- 30 il düşmən tapdağında qalan Vətən torpaqların azadlığı uğrunda qeyrətli oğullarımız sözün əsl mənasında tarix yazdılar. 44 günə yağı düşmən məhv olundu, Azərbaycanın üç rəngli qələbə bayrağı Qarabağımızın hər guşəsində ucaldıldı.

Natiq çıxışının yekununda ölkə rəhbəri İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhidlərin adının əbədiləşdirilməsi, onların xatirəsinin əziz tutulması və şəhid ailələrinin bütün problemlərinin həlli istiqamətində aparılan işlərdən, dövlət tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıdan danışdı, yüksək amal uğrunda canını fəda edən qalib şəhidlərin xatirəsinə həmişə diqqətlə yanaşılması hər birimizin mənəvi borcu olduğunu söylədi.

Şəhidin qardaşı öz çıxışında qəhrəman Samir Allahverdiyevin xatirəsinə göstərilən ehtiramdan ötrü razılıq etdi. Həmçinin şəhidlərlə bağlı görülən dəyərli işlər üçün həyata keçirilən bütün addımlara görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirdi.

Sonra turnirdə uşaqlar arasında yarış keçirib, qalib komandaya kubok və idmançılara medallar verildi, ardınca komandalar arasında yarışlar başlandı.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# "Azərbaycan millisi ilə tarixi nəticələrə imza atacağıq" - Fernandu Santuş

***”Işimiz barədə danışmağa kifayət qədər vaxtımız olacaq”.***

”Unikal” xəbər verir ki, bu sözləri futbol üzrə Azərbaycan millisinin yeni baş məşqçisi Fernandu Santuş təqdimat mərasimində deyib. Portuqaliyalı mütəxəssis ona göstərdiyi etimada görə AFFA rəhbərliyinə təşəkkür edib: ”Danışıqlar müddətində layihələr mənə maraqlı gəldi. Bu anlaşma gələcək planları bir yerdə həyata keçirmək baxımından çox önəmlidir. Buraya gəlmişəmsə, deməli, AFFA rəhbərliyi mənə inanır”.

Onun sözlərinə görə, uzunmüddətli layihə həyata keçiriləcək: ”İnanıram ki, tarixi nəticələrə imza atacağıq. Böyük turnirlərdə olmaq istəyirik. Başqa təkliflər də var idi, lakin bu layihəyə inandığım üçün Azərbaycan millisini seçdim”.



Qeyd edək ki, Fernandu Santuş 2016-cı ildə Portuqaliya millisi ilə Avropa çempionluğunu qazanıb. Onun son iş yeri Türkiyənin ”Beşiktaş” komandası olub.

# Flik onu yenidən "Barselona"da görmək istəyir

***”Atletiko”nun hücumameyilli yarımmüdafiəçisi Joao Feliks gələn mövsüm yenidən ”Barselona”da çıxış edə bilər.***

QOL.az AS-a istinadən xəbər verir ki, Kataloniya təmsilçisinin yeni baş məşqçisi Hans-Diter Flik portuqaliyalı oyunçunun xidmətində maraqlıdır.

O, futbolçunu yenidən icarəyə götürməyə icazə verib. Almaniyalı mütəxəssis futbolçu ilə söhbət edib, klubun layihəsinin gələcəyi haqda danışıb.

İcarənin baş tutması üçün Feliksin agenti Xorxe Mendes ”Atletiko”nu futbolçunu buraxmağa razı salmalıdır.

# Laporta Xavinin istefasının səbəbindən danışdı



***”Barselona”nın prezidenti Joan Laporta Xavinin baş məşqçi vəzifəsindən qovulması ilə bağlı qərarın niyə verildiyini açıqlayıb.***

QOL.az ”Mundo Deportivo”ya istinadən xəbər verir ki, o deyib: “Xavi çox çətin bir zamanda komandaya baş məşqçi təyin olundu. O, tarixi İspaniya liqasının titulunu, Superkubokunu qazandı. Gələcəkdə bir çox kuboklar qazanacaq bir sıra gənc oyunçular yetişdirdi. Buna baxmayaraq, biz bu qərarı verdik, çünki yeni təkan lazım idi və biz dəyərli və məsuliyyətli məşqçi seçdik”.

Hans-Diter Flik ”Barselona”nın yeni baş məşqçisi olub.

# Qattuzo bu klubu çalışdıracaq

***İtaliya millisinin və ”Milan” klubunun sabiq üzvü Cennaro Qattuzonun yeni iş yeri bəlli olub.***

”Unikal” xəbər verir ki, 46 yaşlı mütəxəssis Xorvatiyanın ”Hayduk” klubunun baş məşqçisi kimi çalışacaq. Split təmsilçisi onunla 2 illik müqavilə bağlayıb.

Qeyd edək ki, C.Qattuzo sonuncu dəfə Fransanın ”Marsel” klubuna rəhbərlik edib.

# "Bolonya"nın hücumçusu Niderland millisinə çağırıldı





***”Bolonya”nın hücumçusu Coşua Zirkzee Niderland millisinə çağırılıb.***

QOL.az xarici KİV-ə istinadən xəbər verir ki, o, zədələnən Ten Koepmeynnerin əvəzinə Avro-2024 üçün milliyə dəvət alıb.

Qeyd edək ki, Avro-2024 14 iyun 15 iyul aralığında Almaniyada keçiriləcək. Niderland millisi qrupda Polşa (16 iyun), Fransa (21 iyun) və Avstriya (25 iyun) ilə qarşılaşacaq.

# Ayxan Abbasov rəsmən “Şamaxı”da

***Növbəti mövsümdən Premyer Liqada mübarizə aparacaq “Şamaxı”da yeni baş məşqçi təyinatı rəsmiləşib.***

Bu vəzifəyə Ayxan Abbasov gətirilib. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. 43 yaşlı mütəxəssislə imzalanan müqavilənin detalları hələlik açıqlanmayıb.

Ötən gün A.Abbasov QOL.az-a açıqlamasında da “Şamaxı” ilə müqavilə imzalayacaqlarını təsdiqləmişdi.

Qeyd edək ki, Ayxan Abbasovun son iş yeri bu yay ayrıldığı “Turan Tovuz” olub.

# "Mançester Yunayted"in siyahısında üç hücumçu var



***”Mançester Yunayted” yay transfer pəncərəsi ərəfəsində hücumçuların qısa siyahısını hazırlayıb.***

QOL.az ESPN-ə istinadən xəbər verir ki, Mançester təmsilçisi Ayvane Tauni (”Brentford”), Coşua Zirkzee (”Bolonya”) və Conatan Davidlə (”Lill”) maraqlanır. ”Leyptsiq”in hücumçusu Benjamin Şeşko da qısa siyahıda idi. Lakin o, Almaniya klubu ilə müqaviləsini uzatmaq qərarına gəlib.

Ötən mövsüm “Mançester Yunayted” Premyer Liqa turnir cədvəlini 8-ci pillədə başa vurub və İngiltərə kubokunu qazanıb.